www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 sentyabr 2016-cı il Cümə axşamı № 208 (6529) Qiymət 60 qəpik

Xəbər

## Əri hərbiçi qadının boğazını kəsib öldürdü

yazısı səh.14-də

Gündəm

### Cahangir Hacıyev Samir Şərifovdan əl çəkmir



Həbsdə olan bankir məhkəmədə növbəti mesajlar verdi: "Əgər istintaq bacarırdısa, kredit verilən başqa şəxslərin adını yazardılar"

yazısı səh.4-də

### Hərbi və siyasi ekspertlərdən növbəti savaş xəbərdarlığı

yazısı səh.11-də

### Ərdoğanın BMT-dəki sensasion çıxışına Azərbaycandan dəstək

yazısı səh.7-də

### "Mövcud mühit referendumun normal, demokratik şəraitdə keçirilməsinə imkan verir"

yazısı səh.6-da

### Putin "kəmərləri sıxır"- Dövlət Təhlükəsizlik Nazirliyi niyə yaradılır?

yazısı səh.9-da

### Qarabağı ermənilər üçün cəhənnəmə çevirəcək yeni silahımız

yazısı səh.3-də

### Beynəlxalq Valyuta Fondu: "Azərbaycanın bank sistemi təmizlənməlidir"

yazısı səh.4-də

### İsraili işğalçı adlandıran Obama Ermənistanın adını niyə çəkmir...

yazısı səh.9-da

### Azərbaycanda istehsal olunan malların vahid məlumat bazası yaradılır

yazısı səh.2-də

### Ləğv olunmuş bankın rəhbərinə 7 milyonluq ittiham

yazısı səh.3-də

### Vergilər Nazirliyinin səlahiyyətləri artırılır

yazısı səh.15-də

## Qarabağ səmasında barıt qoxusu - savaş riski yenə öndə

# ƏRDOĞANDAN MÜHARİBƏ MESAJI, OLLANDDAN GÖRÜŞ İSMARIŞI - HANSI YOL SEÇİLƏCƏK

Aprel döyüşlərindən sonra sülh danışıqları ən kritik dönəmə girib; ekspertdən xəbərdarlıq: "Bu dəfə Putin müharibəni dayandıra bilməyəcək, çünki..."




yazısı səh.8-də

## Venesiya Komissiyasının referenduma dair ilkin rəyi qalmaqal yaratdı

Prezident Administrasiyası məsələyə sərt reaksiya verdi; qurum siyasi sifariş yerinə yetirməkdə və qeyri-obyektivlikdə suçlandı

yazısı səh.5-də



*Elxan Şahinoğlu:*
### "Avroparlament rəsmiləri ilə görüşdə prezidentin detallarla zəngin çıxışı ondan xəbər verir ki..."

yazısı səh.7-də



### Zakir Həsənovdan hərbçilərə tapşırıq: "Düşmənin bütün hərbi obyektlərinin məhvinə hazır olun"

yazısı səh.2-də



*Tahir Əmiraslanov:*
### "Yaponiyada insan peyinindən ət hazırlanır, kolbasaya vurulur"

yazısı səh.10-da

## 22 sentyabr 2016



# Prezident yol açılışında və Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimində iştirak etdi



**Azərbaycan prezidenti sentyabrın 14-də Mingəçevirə səfər edib. İlham Əliyev Mingəçevirə gedərkən yolüstü Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun Kürdəmir-Ucar-Yevlax hissəsinin açılışında iştirak edib. Prezident İlham Əliyev Kürdəmir-Ucar-Yevlax-Tərtər avtomobil yolunun 87,5 kilometrlik hissəsinin yenidənqurma və bərpadan sonra rəmzi açılışını bildirən lenti kəsib.**

Daha sonra İlham Əliyev Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimində iştirak etmək üçün bu şəhərə yollanıb. Azərbaycan prezidenti Mingəçevir şəhərində aparılan abadlıq və tikinti işləri ilə tanış olub.

APA-nın məlumatına görə, dövlət başçısı görülən işləri əks etdirən stendlərə baxıb.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov prezident İlham Əliyevə Sahil və Füzuli parklarında görülən işlər, habelə Kür çayının sol sahilində kiçik gəmilər və qayıqlar üçün yanalma platforması, digər layihələr barədə məlumat verib.

İlham Əliyev Mingəçevir Sənaye Parkının təməlini qoyub.

Sonra Azərbaycan prezidenti Mingəçevir şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Prezident İlham Əliyev görüşdə çıxış edib.

## Azərbaycanda istehsal olunan malların vahid məlumat bazası yaradılır

**Prezident İlham Əliyev Azərbaycanda istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, portalın yaradılması məqsədi ilə Prezidentin ehtiyat fondundan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə 400 min manat ayrılıb.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə Azərbaycanda istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatları əks etdirən, ən azı üç dildə (Azərbaycan, ingilis və rus dillərində) fəaliyyət göstərən İnternet portalının üç ay müddətində yaradılmasını təmin etmək, həmin portalda istehsal fəaliyyəti üzrə (hər bir mal növü, onun istehsalçısı, hüquqi ünvanı, əlaqə vasitələri, habelə istehsalçı qrupları, istehsal imkanları, tərəfdaşlar və s.) istifadəsi sadə olan axtarış sistemi yaratmaq, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə istehsalçılarla informasiya mübadiləsinin elektron şəkildə və daha operativ qaydada təşkil olunması, habelə istehsalçılar tərəfindən məlumatların portala daxil edilməsi və yenilənməsi məqsədi ilə portalda "elektron kabinet" bölməsi yaratmaq və malların istehsalçıları tərəfindən məlumatların portalda yerləşdirilməsi üçün mütəmadi olaraq təbliğat-təşviqat tədbirləri həyata keçirmək tapşırılıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həmçinin yaradılmış portal barədə məlumatın kütləvi informasiya vasitələri ilə yayılmasını təmin etməlidir.

Nazirlər Kabineti isə prezidentin aktlarının sərəncama uyğunlaşdırılması ilə bağlı təklifləri iki ay müddətində hazırlayaraq prezidentə təqdim etməli, habelə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlamalı və bunun icrası barədə üç ay müddətində prezidentə məlumat verməlidir.

# Zakir Həsənovdan hərbçilərə tapşırıq

"Düşmənin bütün hərbi obyektlərinin məhvinə hazır olun"

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Müdafiə Nazirliyinin rəhbər heyətinin iştirakı ilə xidməti müşavirə keçirilib.**

Bu barədə nazirliyin mətbuat xidməti məlumat yayıb.

Müşavirədə regionda mövcud olan hərbi-siyasi vəziyyət təhlil edilərək müəyyən edilmiş əsas istiqamətlər üzrə kəşfiyyatın bütün növlərinin gücləndirilməsi ilə düşmən ərazisindəki yeni hədəflərin aşkar olunması, onların əhəmiyyətinin qiymətləndirilməsi və məhvedilmə ardıcıllığının müəyyənləşdirilməsi, Quru Qoşunlarının birlik və birləşmələri, Hərbi Hava Qüvvələri, Raket və Artilleriya Qoşunları, Xüsusi Təyinatlı Qüvvələr, Silahlı Qüvvələrin digər növ və qoşun qisimlərinin qarşılıqlı əlaqədə fəaliyyətinin artırılmasına xüsusi diqqət yönəldilib.



Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkə üçün yarana biləcək istənilən hərbi təhdid ehtimalını nəzərə alaraq düşmənin bütün ərazisindəki strateji və hərbi təyinatlı obyektlərə nəzarətin gücləndirilməsi, zərurət yaranarsa onların əhəmiyyətinə görə dərhal məhv edilməsinə hazır olmaqla bağlı müvafiq tapşırıqlar verib.

Nazir xüsusi vurğulayıb ki, Silahlı Qüvvələrin sərəncamında olan raket-artilleriya qurğu və sistemləri bu tapşırıqları dəqiqliklə yerinə yetirməyə imkan verir.



## Narkotik tərkibli dərman satan aptek işçisi saxlanıldı

**Daxili işlər orqanları Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qanunla qadağan edilən, məhdudlaşdırılan narkotik vasitələrin və onların prekursorlarının, eləcə də psixotrop tərkibli dərmanların qeyri-qanuni satışının təşkili onlarına qarşı mübarizəni uğurla davam etdirir.**

Belə ki, Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinə (BNMİ) Yasamal rayonu ərazisində yerləşən apteklərdən birində dövriyyəsi qadağan edilən narkotik tərkibli dərmanların satışının təşkil edilməsi barədə əməliyyat məlumatı daxil olub.

DİN-in mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində həmin aptekdə işləyən Şirvan şəhər sakini Tural Abıyev güclü psixotrop təsirə malik olan 9 ədəd "Lyrica" kapsulunu satarkən polis əməkdaşları tərəfindən saxlanılıb.

Saxlanılan şəxsin işlədiyi aptekə baxış zamanı oradan əlavə olaraq psixotrop tərkibli 3200 ədəd "Tramadol", 112 ədəd "Lyrica", 1335 ədəd "Pregabalin" kapsulaları, 165 ədəd "Tradolex" ampulaları və 4 ədəd "Tropicamide Mydrax" flakonu aşkar olunaraq götürülüb.

İlkin dindirmə zamanı T.Abıyev işlədiyi aptekdə həmin dərmanların satışını həyata keçirdiyini etiraf edib.

Qeyd edilən faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.




# ANS-in şikayəti təmin olunmadı

**ANS-in lisenziyasının ləğvinə dair qərardan kasasiya şikayəti təmin edilməyib. Musavat.com xəbər verir ki, sentyabrın 21-də Ali Məhkəmədə ANS-in Bakı Apelyasiya Məhkəməsinin qərarından verdiyi kasasiya şikayətinə baxılıb.**

Məhkəmə şikayətin təmin edilmədiyini və Bakı Apelyasiya Məhkəməsinin qərarının qüvvədə saxlanıldığını elan edib.

Mirşahin Ağayev jurnalistlərə açıqlamasında ədalətli qərar gözlədiklərini deyib: "Ən son ölən ümiddir. Biz ədalətli qərar gözləyirdik".

Qeyd edək ki, Milli Televiziya və Radio Şurası (MTRŞ) Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayım və Media" Şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən 1 ay müddətinə dayandırılması barədə qərar qəbul edib. Eyni zamanda, MTRŞ 25 oktyabr 2013-cü il tarixli TR 099 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə məhkəmədə iddia qaldırıb. Bakı Apelyasiya Məhkəməsində isə ANS-in lisenziyasına xitam verilməsi ilə bağlı qərar qəbul olunmuşdu.

❑ **İlkin MURADOV**

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnalları həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## Misirdə göyərtəsində 600 qaçqın olan gəmi batdı

**Misirdə göyərtəsində 600 qaçqın olan gəmi batıb. "Report" "Haberturk"ə istinadən xəbər verir ki, 29 nəfərin meyiti sudan çıxarılıb, 150 qaçqın xilas edilib.**

Məlumata görə, axtarış-xilasetmə əməliyyatı davam etdirilir.

## Babasını qətlə yetirən gəncə 18 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən Hacıağa Hüseynov və Elman Qasımovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**

APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə H.Hüseynov 18 il və E.Qasımov isə 17 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, cinayət hadisəsi bu il fevralın 14-də Sabunçu rayonu ərazisində, Albalılıq bağ sahəsində baş verib. H.Hüseynov babası 76 yaşlı H.Məmmədrəsul oğlunun qətlini tamah məqsədi ilə qonşusu E.Qasımovla birgə təşkil edib. Həmin şəxslər H.Məmmədrəsul oğlunu bağ evinin həyətində başından vuraraq öldürüb, sonra 2 min manat pulu ələ keçirərək bölüşdürüblər. Hadisə ilə bağlı daha əvvəl Bakı şəhər sakini E.Qasımov tutulub. H.Hüseynov isə hadisənin baş verdiyi gündən 12 gün sonra tutularaq istintaqa təhvil verilib.

Onlar Cinayət Məcəlləsinin 120.2.1-ci (qəsdən adam öldürmə, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə), 120.2.11-ci (qəsdən adam öldürmə, quldurluq, hədə-qorxu ilə tələb etmə, terrorçuluq və ya banditizmlə əlaqədar adam öldürmə) və 181.3.3-cü (quldurluq, zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmaqla törədildikdə) maddələri ilə ittiham olunublar.

## Ukraynada daha bir azərbaycanlı iş adamı oğurlandı

**Ukraynada daha bir azərbaycanlı biznesmen naməlum şəxslər tərəfindən oğurlandı.**

Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresindən APA-ya verilən məlumata görə, oğurlanan şəxs Kiyevdə yaşayan 38 yaşlı İlqar adlı iş adamıdır.

Azərbaycanlı iş adamını oğurlayan şəxslər onun sağ olduğunu bildirsələr də, həlelik azad olunması müqabilində heç bir tələb irəli sürməyiblər.

Qeyd edək ki, son 2 ildə Ukraynada 20-dən çox azərbaycanlı iş adamı və övladları naməlum şəxslər tərəfindən oğurlanıb. Bundan başqa, azərbaycanlı iş adamlarına qarşı da sui-qəsd, obyektlərinin partladılması halları qeydə alınıb. Ukraynada yaşayan azərbaycanlılar sentyabrın 14-də Ukrayna Daxili İşlər Nazirliyi qarşısında etiraz aksiyası keçiriblər, onlar nazir Arsen Avakovdan məsələyə biganə qalmamağı tələb ediblər. Azərbaycanın baş prokuroru Zakir Qaralov isə məsələ ilə bağlı ukraynalı həmkarı Yuri Lutsenkoya müraciət edib.

YENİ MÜSAVAT
N 208 (6529) 22 sentyabr 2016

# Tibbi sığorta reallaşır - şərtlər necə olacaq?

**Uzun illər ərzində müzakirə edilən icbari tibbi sığorta yenidən gündəmə gətirilib. Artıq bu istiqamətdə addımların atıldığı bildirilir. Məsələn, paketə daxil olan xəstəliklərin siyahısı Nazirlər Kabinetinə təqdim edilib.**

## Ekspertlər əhalinin geniş və əhəmiyyətli şəkildə sığortalanacağını istisna edirlər, çünki...

Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev bildirib ki, icbari tibbi sığorta paketinə 1800-dən çox müayinə, müalicə, diaqnostik prosedur, cərrahiyyə əməliyyatı və digər tibbi xidmətlər daxildir. Direktor APA-ya açıqlamasında deyib ki, paketə daxil olan xəstəliklərin siyahısı ilə bağlı baza zərfi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib. Bir sıra xəstəliklər- onkoloji, xroniki böyrək çatışmazlığı və şəkərli diabet xəstələrinin müayinə və müalicəsi icbari tibbi sığortanın təminat paketinə daxil edilməyib. "Bir sıra laboratoriya müayinələri, MRT, KT, rentgen kimi müayinələr tibbi sığorta təminatına daxil ediləcək. Terapevtik müalicələrin çox hissəsi icbari tibbi sığorta tərəfindən qarşılanacaq",- Z.Əliyev deyib.

**Tibbi sığorta zərfinə müəyyən bahalı əməliyyatlar da daxil edilib. Z.Əliyevin sözlərinə görə, araşdırmalar zamanı ölkə vətəndaşlarının ən çox əziyyət çəkdiyi və daha çox vəsait tələb edən xəstəliklərin siyahısı müəyyən edilib:** "Bu, əsasən ürək-damar xəstəlikləridir. Ona görə də beyin anevrizması, periferik damar əməliyyatları, yemək borusu, qapalı və açıq ürək əməliyyatları da sığorta təminatına daxil edilib. Bir sıra xəstəliklər- onkoloji, xroniki böyrək çatışmazlığı və şəkərli diabet xəstələrinin müayinə və müalicəsi üzrə dövlət proqramları mövcuddur. Ona görə də bu xəstəliklərin müalicəsi icbari tibbi sığortanın təminat paketinə daxil edilməyib. Gələcək illərdə həmin xəstəliklər üzrə də təminat verməyi nəzərdən keçiririk".

Qeyd edək ki, Azərbaycanda "İcbari tibbi sığorta haqqında" Qanun 17 il əvvəl qəbul edilib. Ancaq indiyə kimi tətbiq edilməyib. İcbari tibbi sığorta imkanından yalnız xarici şirkətlərdə çalışanlar istifadə edə bilirlər. Bu yaxınlarda icbari sığortaya Azərbaycanın bölgələrindən başlanacağı açıqlanıb. Müstəqil ekspertlər əhalinin geniş və əhəmiyyətli şəkildə sığortalanacağına şübhə ilə yanaşırlar. Bildirilir ki, hökumət ölkəyə böyük neft pulları gələrkən bu məsələni yaddan çıxarmışdı. İndi isə neftin qiyməti düşüb, ölkənin gəlirləri azalıb.



**Professor Elşad Məmmədov musavat.com-a açıqlamasında bildirib ki, ölkədə effektiv tibbi sığorta sisteminin formalaşdırılması hazırkı iqtisadi vəziyyətdə problemli görünür:** "Sovet ölkəsinin süqutundan sonra ölkədə əhaliyə effektiv, geniş əhali kütlələri üçün əlçatan tibbi yardımın göstərilməsi sistemi formalaşdırılmayıb. Geniş əhali kütlələri üçün əlçatan tibbi yardımın göstərilməsi sistemi yaradılmayıb. Digər tərəfdən isə ölkənin mövcud iqtisadi problemlərinin dövlət büdcəsi xərcləri, o cümlədən səhiyyə sisteminə ayrılan və heç də böyük rəqəmlərlə ifadə olunmayan xərclər belə büdcə üçün ağırlıq təşkil edir. İndiyədək tibbi sığortanın tətbiq edilməməsi bununla izah oluna bilər. Beləliklə, ölkənin səhiyyə sistemində mövcud olan problemlər artıq cəmiyyətin geniş təbəqələrində, o cümlədən hökumət dəhlizlərində müzakirə obyektinə çevrilib. Sözsüz ki, pulsuz sovet səhiyyə sisteminə qayıdış real deyil. Bununla belə, bazar iqtisadiyyatına keçid zamanı yaranan problemlər səhiyyə sistemində bir çox sistemli problemlərin əmələ gəlməsinə səbəb olub. Bunlar səhiyyə sistemində prioritetin əhalinin sağlamlığından yüksək mənfəətin əldə olunmasına doğru yönəldilməsi, əhalinin təbəqələşməsindəki disbalansın formalaşması nəticəsində bir çox hətta mürəkkəb texnoloji tutumu olmayan tibb xidmətlərinin əhalinin geniş təbəqələri üçün əlçatmaz olması, ölkənin tibbi təhsil sisteminin kəskin tənəzzülə uğraması, ölkədə səhiyyə sferasında menecmentin hazırlanması və digər mühüm problemlərdir".

**Ekspert qeyd edib ki, tibbi sığorta sisteminin tətbiqi dünya praktikasında səhiyyə sisteminin dayanıqlı inkişafı istiqamətində qəbul olunmuş mexanizmdir. Lakin ölkədə effektiv tibbi sığorta sisteminin formalaşdırılması hazırkı iqtisadi vəziyyətdə problemli görünür.** "Bu, ilk növbədə bu istiqamətdə işlənilən proqramların maliyyələşdirmə mənbələrinin tapılmasında yaranan problemlərlə bağlıdır. Şübhəsiz, indiki vəziyyətdə və yaxın illərdə dövlət büdcəsi hesabına bu proqramların maliyyələşdirilməsi çox problematikdir. Digər tərəfdən, əhalinin bu proseslərin maliyyələşdirilməsinə cəlb olunması da perspektivli hesab oluna bilməz. Belə olan halda, prosesin universal deyil, səhiyyənin hansısa prioritet istiqamətləri üzrə pilot layihələr çərçivəsində tətbiqi daha real görünür ki, bu proses tədricən ölkənin səhiyyə sistemində effektiv tibbi sığortanın formalaşmasının presidenti olaraq gələcəkdə prosesin səhiyyənin digər sahələrində də tətbiqini mümkün edə bilər",- deyə o vurğulayıb.

❑ RÖYA

# Ləğv olunmuş bankın rəhbərinə 7 milyonluq ittiham

## Vəkil Əziz Qənbərov: "Pərvanə Novruzova dövləti aldatmağa cəhd edir"

**Bu ilin yanvarında lisenziyası ləğv olunan "Gəncəbank" ASC-nin idarə heyətinin sabiq sədri Pərvanə Novruzova qanunsuzluqla 7 milyon 300 min manat mənimsəyib. Belə bir iddia ilə vəkil Əziz Qənbərov çıxış edib. Vəkil deyir ki, sabiq bankir onun müvəkkili milliyyətcə rus olan Natalya Konstantinovna Kərimovanın əmlaklarını qaytarmaq istəmir və üstəlik, həmin əmlakları girov qoymaqla dövləti də aldadır.**




Vəkilin sözlərinə görə, Pərvanə Novruzova tərəfindən N.Kərimovanın əlindən zorla alınmış əmlakları ilə bağlı hazırda məhkəmə çəkişmələri davam edir. Ə.Qənbərov deyir ki, məhkəmədə çoxsaylı saxtakarlıqlar üzə çıxmaqdadır: "İş üzrə məhkəmə çəkişmələri davam etdiyi bir vaxta Pərvanə Novruzovanın yeni saxtakarlıqları üzə çıxıb. Gəncə şəhəri, Şah İsmayıl Xətai prospekti 87 A ünvanında yerləşən və N.Konstantinovanın əlindən Novruzovlar tərəfindən zorla alınan gözəllik salonu məhkəmə baxışı prosesində 7 milyon 300 min manat müqabilində Mərkəzi Banka girov qoyulmaqla yüklü edildiyi aydın oldu. Deməli, Pərvanə Novruzova məhkəmələrin həmin gözəllik salonunu Natalya Konstantinovnaya qaytaracağına əmindir və əmlakının məhkəmə qaydasında ondan alınacağını anlayıb. Bu halda daha bir qanunsuzluğa yol verib. Özünə aid olmayan əmlakı dövlətə girov qoyub və 7 milyon 300 min almaqla, faktiki dövləti də aldatmağa cəhd edir. Qeyd edək ki, N.Kərimovaya məxsus olan həmin gözəllik salonu, Gəncədəki 2 mənzili illər öncə əlindən alınıb, özünü isə ölkədən qovublar. Sonradan mənzillərdən biri digər şəxsin istifadəsinə verilib, gözəllik salonunun adı dəyişdirilərək "Afrodita" adı ilə fəaliyyətini davam etdirib.

**N.Kərimova əmlakının əlindən alınması ilə bağlı hüquq-mühafizə orqanlarına müraciətlərində bunları yazıb:** "Məni döyüb, işgəncə verib, gözümün qarşısında qızımın paltarlarını cırıb onu zorlamaq hədəsi ilə əmlaklarımı əlimdən alıblar. Pərvanə Novruzovanın əmri ilə məni döyüblər və bətnimdəki övladım ölüb. Mən bu haqda uzun illər susmuşam, qızlarıma, özümə xətər yetiriləcəyindən ehtiyat etmişəm. Azərbaycanın prezidentinə güvənib ölkəyə qayıtmışam və haqqımın bərpa olunmasını prezidentdən xahiş edirəm. Milliyyətcə rusam, Azərbaycan mənim vətənimdir. Pərvanə Novruzova mənim həyatımı alt-üst edib. Dönə-dönə xahiş edirəm ki, üzləşdiyim qanunsuzluqlar aradan qaldırılsın".

Yada salaq ki, N.Kərimovanın vəkilləri hüquq-mühafizə orqanlarına müraciət etməklə baş verənlərlə bağlı Cinayət Məcəlləsinin 181-ci (quldurluq), 182-ci (hədə-qorxu ilə tələb etmə) maddələri ilə cinayət işi başlanmasını, bu halların araşdırılması məqsədilə xüsusi istintaq komissiyanın yaradılmasını xahiş ediblər.

❑ E.HÜSENOV



# Qarabağı ermənilər üçün cəhənnəmə çevirəcək yeni silahımız

**Müdafiə Sənayesi Nazirliyi "Şərq" İstehsalat Birliyinin "AZAD Sistemlər" müəssisəsində hazırlanan müasir kəşfiyyat element bazasına və taktiki məhvedici hücum sisteminə malik "Zərbə" pilotsuz uçuş aparatlarının təqdimatı olub.**

Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

"Zərbə" pilotsuz uçuş aparatı ilə bağlı yeni görüntülər ortaya çıxıb.

BAKU.WS-in məlumatına görə, İsrailin dəstəyi ilə "AZAD Sistemlər" müəssisəsində hazırlanan "Zərbə" pilotsuz uçuş aparatı "Orbiter 1 k" bazasında yığılıb. Bu PUA müasir kəşfiyyat element bazasına və taktiki məhvedici hücum sisteminə malikdir.

Qeyd edək ki, qurğuda xüsusi izləmə mini optik kamerası yerləşdirilir. Aparat xüsusi elektron mühafizə sisteminə malik olmaqla, elektron maneə vasitələrinə qarşı dayanıqlıdır. Peyk GPS əlaqəsi itən zaman aparat sərbəst döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Məhsulun istehsalı ilə müxtəlif ixtisaslar üzrə xüsusi təlim-tədris kursu keçmiş milli kadrlar məşğul olurlar. Xüsusi test yoxlamalarından sonra pilotsuz uçuş aparatları Silahlı Qüvvələrin istifadəsinə verilir.

Yeni yaradılan "Zərbə" PUA gecə və gündüz, istənilən hava şəraitində sərbəst şəkildə düşməni izləmək və ona zərbə endirmək imkanına malikdir. Həmçinin partladıcı gücə malik yeni aparat qəlpəli fuqası piyada əleyhinə, müxtəlif texnikaya və canlı qüvvəyə qarşı effektivdir. Aparat əməliyyat baxımından xüsusi avadanlıqlarla təchiz edilmiş yüksək keçid qabiliyyətinə malik "K1-Zərbə" mobil xüsusi zirehli maşına quraşdırılıb və istənilən zaman düşmənə sarsıdıcı zərbə endirə bilər.

**"Beynəlxalq Bank işi"nə görə həbs edilənlərin cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 21-də davam etdirilib. Musavat.com xəbər verir ki, prosesdə Beynəlxalq Bankın sədri olmuş Cahangir Hacıyevin vəkili Fəxrəddin Mehdiyev məhkəmənin intensiv keçirilməsinə etiraz edib.**

Vəkil qeyd edib ki, hakimlər tələsik məhkəmə istintaqını yekunlaşdırmaq istəyirlər: "Biz hüquqlarını müdafiə etdiyimiz şəxslə məsləhətləşə bilmirik. Məhkəmə ona təqdim edilən sənədləri düzgün araşdırmır".

Hakim bildirib ki, tərəflərin qaldırdığı bütün vəsatətlərə iş materialları tədqiq olunduqdan sonra baxılacaq.

Sabiq bankirin vəkillərinin digər vəsatəti isə məhkəmə tərkibinə etirazla bağlı olub. Hakim isə etirazın məhkəmə sədrinə yazılmasını məsləhət görüb.

Prosesdə cinayət işində olan sənədlərin tədqiqi davam etdirilib.



# Cahangir Hacıyev Samir Şərifovdan əl çəkmir

## Həbsdə olan bankir məhkəmədə növbəti mesajlar verdi: "Əgər istintaq bacarırdısa, kredit verilən başqa şəxslərin adını yazardılar"

**Cahangir Hacıyev çıxış edərək, bankın sənədlərinin məhkəməyə gətirilməsini istəyib.**

**O deyib ki, ittiham aktında qeyd edildiyi kimi, kreditlərin verilməsi əmrlə yox, İdarə Heyətinin qərarı ilə rəsmiləşdirilib:** "Məhkəmədə elə fikir formalaşdırılır ki, mən üç min nəfərin yerinə işləmişəm. Şişirtmək istəyirlər ki, guya mən elə imza çəkib kredit paylamışam".

**C.Hacıyev istintaqın aparılmasından da narazılığını dilə gətirərək hakimə müraciət edib:** "Cənab hakim, siz hüquqşünassınız, bu isə maliyyə işidir. Mən arayış verim. İstintaq 2008-2015-ci illərdə manatla verilən kreditləri həmin dövrün məzənnəsi ilə dollara çevirib, sonra isə bugünkü məzənnə ilə hesablayıb. Ancaq iki dəfə devalvasiya olub. Buna görə də rəqəmlər şişib. Bu isə əlbəttə ki, düzgün deyil. Təəssüf ki, indi kalkulyatorum yoxdur, olsaydı hesablayardım. Siz kalkulyator götürün, mənimlə birlikdə hesablayaq".

Prosesdə vəkillər vəsatətlərlə çıxış ediblər. Vəkili Aqil Layicov deyib ki, C.Hacıyevin həyat yoldaşı və qızı ilə sonradan bank arasında səhmlərin alqı-satqısı olub. Vəkil qeyd edib ki, bununla da onlara verilən kredit kartlarının borcu ödənilib, ancaq Maliyyə Nazirliyi kredit kartları borclarını qəsdən ləğv etmir.

**C.Hacıyev də çıxışında qeyd edib ki, qızı Leyla Mahmudovanın adına kredit borcu olmadığından onun adı ittiham aktından çıxarılmalıdır:** "Əgər istintaq bacarırdısa, kredit verilən başqa şəxslərin adını yazardılar".

C.Hacıyevin vəkilləri vəsatət verərək Beynəlxalq Bankdan ayrılan kreditlər üzrə daxili layihələrə faktiki olaraq rəhbərlik edən Dünyamin Xəlilovun şahid kimi məhkəməyə çağırılmasını istəyiblər: "Akif Əliyev və Emin Mustafayev həmin layihələrdə iştirak ediblər, lakin məhkəmədə heç nədən məlumatlı olmadıqlarını dedilər. Dünyamin Xəlilov saxlanıldığı 1 saylı Bakı İstintaq Təcridxanasından gətirilə bilər".

Prosesdə növbəti dəfə maliyyə naziri Samir Şərifovun məhkəmədə dindirilməsi ilə bağlı vəsatət qaldırılıb. Prokuror Fərid Nağıyev qaldırılan vəsatətlərə təmin edilməsi üçün heç bir əsas olmadığını deyib.

**Prokuror çıxışında Maliyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mais Piriyevin məhkəməyə gətirilməsi ilə bağlı vəsatətə münasibət bildirərkən deyib:** "Cahangir Hacıyevin 5 milyard manat mənimsəməsinin hazırkı ittiham aktına heç bir dəxli yoxdur. Ona görə də Mais Piriyevin məhkəməyə gətirilməsinə ehtiyac yoxdur".

Fasilədən sonra hakim qaldırılan vəsatətlərin heç birinin təmin edilmədiyini açıqlayıb. Hakim qeyd edib ki, məhkəmə istintaqı başa çatıb. Dövlət ittihamçısı isə çıxış üçün vaxt istəyib.

Məhkəmə sentyabrın 27-də davam etdiriləcək.

Qeyd edək ki, bankın sabiq rəhbəri Cahangir Hacıyev, Beynəlxalq Bankın Mərkəzi filialının direktoru vəzifəsində işləmiş Anar Sultanov, bankın Mərkəzi filialın müdiri işləmiş İlqar Abduallayev, "İnter Security" MMC-nin direktoru işləmiş İbrahim Hüseynov, Mərkəzi filialın direktoru işləmiş Yusif Ələkbərov, bankın Nəqliyyat filialının direktoru işləmiş Kənan Orucov, bankın Nərimanov filialının direktoru işləmiş, hazırda AFB Bankın sədri olan Məmməd Cahangirov və Bakı Fındıq Zavodunun direktoru işləmiş Azad Cavadov Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

❑ **İ.MURADOV**

# "Azərbaycanın bank sistemi təmizlənməlidir"

## Beynəlxalq qurumlar banklarımızın durumundan narahatdır

**Ölkənin bank sisteminin acınacaqlı durumda olması beynəlxalq qurumların da diqqətindədir. Beynəlxalq Valyuta Fondu açıqladığı son qiymətləndirmədə bildirib ki, Azərbaycan qısa zamanda bank sistemini təmizləməlidir.**

Beynəlxalq Valyuta Fondunun (BVF) qiymətləndirməsində bildirilir ki, 2015-ci ildə Azərbaycanda artım 1,1 faizə düşüb. 2016-cı ildə bu rəqəmin daha da azalacağı gözlənilir. Çünki neft ucuzlaşır, infrastruktura qoyulan sərmayə kəsilir, manat dəyərini itirir, ölkənin ticarət tərəfdaşlarının iqtisadiyyatı zəifləməkdədir. Fondun Azərbaycan üzrə missiyasının rəhbəri Mohamed El Gorchi də "IMF News"a müsahibəsində Azərbaycanın indiki iqtisadi mənzərəsi haqda danışıb və bildirib ki, artım göstəricisinin neqativ tərəfə keçəcəyi, 2016-cı il üçün 2,4 faiz olacağı gözlənir: "Çünki infrastruktura qoyulan sərmayə azalır, kredit fəallığı çox zəifdir, neft istehsalı aşağıdır. İnflyasiya 2015-ci ildə 4,1 faiz olub, 2016-cı ildə bu göstəricinin 10 faizə yüksələcəyi gözlənir. Buna cavab olaraq hökumət müxtəlif siyasi tədbirlər görüb, inflyasiyanın qarşısını almaq və manatı qüvvədə saxlamaq üçün ötən il ərzində monetar siyasəti kəskin şəkildə sərtləşdiriblər. Eyni zamanda artımı stimullaşdırmaq üçün xərcləri ödəmək, zəif təbəqəni qorumaq məqsədilə fiskal siyasət bir qədər yumşaldılıb". (azadlıq.org)

**BVF təmsilçisi qeyd edib ki, əsas məsələ bank sektorudur:** "Devalvasiya, iqtisadi böhran bankların gəlirinə zərbə vurdu, borc kütləsini artırdı. Xoşbəxtlikdən hökumət artmaqda olan problemli kreditlərin qarşısını almaq üçün addımlar atır. Vəziyyətə davam gətirməyən banklar bağlanıb". Onun sözlərinə görə, 2015-ci ildə devalvasiyalar bank balanslarına mənfi təsir göstərərək, dollarlaşmanın artmasına *(vətəndaşlar yerli valyutanı dollarla əvəzləməyə başladılar)* səbəb oldu. Bu da




son nəticədə qeyri-neft sektorunda artımı azaldaraq, dolayısı ilə iqtisadiyyata ikinci neqativ təsirini göstərir.

**Onun fikrincə, manatın məzənnəsinin korreksiyası neftin ucuzlaşmasından sonra Azərbaycan iqtisadiyyatının sabitləşməsində həlledici rol oynayıb:** "Manatın məzənnəsinə düzəlişlərin edilməsi neftin ucuzlaşmasından sonra Azərbaycan iqtisadiyyatının sabitləşməsində həlledici rol oynayıb. Neftin qiymətinin ucuzlaşmasına uyğun olaraq manatın devalvasiyası izafi xarici disbalansın yaranmasının qarşısını almağa, rəqabət qabiliyyətini bərpa etməyə və valyuta ehtiyatlarının tükənməsi prosesini dayandırmağa kömək etdi". Missiya rəhbəri qeyd edib ki, neftin ucuzlaşmasının yaratdığı şok milli valyutanın məzənnəsinə və valyuta ehtiyatlarına güclü təsir göstərib ki, bu da qismən valyuta tənzimlənməsinin əvvəlki rejimi ilə bağlı olub. 2016-cı ildə bu cür şokların öhdəsindən daha yaxşı gəlmək üçün valyuta tənzimlənməsi üzrə yeni rejimə keçən Azərbaycan hökuməti mübadilə məzənnəsində böyük çevikliyə nail olub.

**Ekspert Natiq Cəfərli musavat.com-a açıqlamasında bildirib ki, bank sisteminin təmizlənməsi deyilərkən, sağlam olmayan bankların bağlanması nəzərdə tutula bilər:** "İlin əvvəlindən Mərkəzi Bank sərt addımlar atdı və bankların lisenziyası əlindən alındı, indiyədək ondan artıq bank bağlanıb. Sonradan bu prosesi dayandırdılar. Çünki sürəti normal yönətə bilmədilər və ciddi ajiotaja səbəb oldu. Çünki az-çox sağlam banklardan belə depozitlərin çəkilməsi prosesinin şahidi olduq. Bu proses həlelik saxlanıldı. Amma düşünürəm ki, bu sağlamlaşdırılma prosesi iki yöndən getməlidir. Ya zəif banklar bazardan tamamilə çıxmalı, digər banklar tərəfindən "udulmalıdır", birləşdirilməlidir. Belə bir addım qaçılmazdır, mütləq atılacaq. Müəyyən səbəblərə görə, ajiotajın artmamasına görə daha hökumət hələ ki ehtiyatlı addımlar atır. Amma bu, qaçılmaz bir prosesdir. Beynəlxalq institutların verdiyi təkliflərdə də bu, açıq-aşkar görünür. Onların proqnoz və təkliflərində bu, vurğulanır. Ona görə düşünürəm ki, ilin sonuna qədər biz yenidən bəzi bankların bağlanmasının, yaxud birləşdirilməsinin şahidi olacağıq. Ortalığa çıxan ciddi məsələ ondan ibarətdir ki, Əmanətlərin Sığortalanması Fondunda vəsait tükənib. Bağlanan banklar vətəndaşların vəsaitini geri qaytara bilmir. Yenidən müəyyən banklar bu siyahıya əlavə olunsa, əmanətlərin qaytarılmasında ciddi problemlər yaşanacaq".

Qeyd edək ki, "Moody's" beynəlxalq reytinq agentliyinin Azərbaycanla bağlı hazırladığı növbəti hesabata görə, yüksək faiz mühiti istehlakçıların və şirkətlərin kredit ödəmə qabiliyyətini aşağı salacaq, bankların aktivlərinin keyfiyyətini azaldacaq və ən önəmlisi, bankların yeni borc almaq imkanlarını məhdudlaşdıracaq. Bildirilir ki, Mərkəzi Bankın inflyasiyanın cilovlanması və milli valyutanın kəskin dalğalanmasının qarşısının alınması tədbirləri çərçivəsində uçot dərəcəsini sentyabrın 14-dən etibarən 9,5 faizdən 15 faizə çatdırması ölkədə fəaliyyət göstərən kommersiya banklarının maliyyələşmə xərclərini artıracaq, xalis faiz gəlirlərini aşağı salacaq. Agentlik Azərbaycan banklarının 2016-cı ili zərərlə başa vuracağını gözlədiyini bildirib.

Agentlik uçot dərəcəsinin artırılmasının bankların maliyyələşmə xərclərini artıracağını, həmçinin Mərkəzi Bankın banklara verdiyi kreditin maya dəyərini yüksəldəcəyini bildirib.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 208 (6529) 22 sentyabr 2016

**Sentyabrın 21-də Azərbaycan Prezident Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyev Venesiya Komissiyasının Azərbaycanın Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş referendumla bağlı neqativ rəy verməsi ilə əlaqədar mətbuat konfransı keçirdi.**



# Venesiya Komissiyasının referenduma dair ilkin rəyi qalmaqal yaratdı

## Prezident Administrasiyası məsələyə sərt reaksiya verdi; qurum siyasi sifariş yerinə yetirməkdə və qeyri-obyektivlikdə suçlandı

Xatırladaq ki, sentyabrın 6-da Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Bürosu Venesiya Komissiyasından Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı keçiriləcək referendumu qiymətləndirməyi xahiş edib. Onların ilkin rəyi isə neqativ olub. Qurum prezidentlik müddətinin uzadılmasına, prezidentə parlamenti buraxmaq səlahiyyətinin verilməsinə tənqidi yanaşıb.

Bu, Venesiya Komissiyasının yekun rəyi yox, ilkin rəy, layihədir. Yekun rəy oktyabrın 15-də Venesiya Komissiyasının plenar iclasında təsdiqlənəcək.

**Bu barədə danışan PA-nın şöbə müdiri yaranmış durumla bağlı Azərbaycanın rəsmi mövqeyini açıqladı:** "Mənim yadıma gəlmir ki, bu və ya digər məsələ üzrə Venesiya Komissiyası Azərbaycanla bağlı üç aydan tez hansısa rəyə gəlsin".

**Dövlət rəsmisinin sözlərinə görə, adətən bu kimi məsələlərlə bağlı ilkin rəy hazırlandıqdan sonra elektron poçt vasitəsilə Azərbaycan tərəfinə göndərilirdi, Azərbaycan tərəfi dinlənilirdi, ondan sonra həmin rəy verilirdi:** "Lakin naməlum səbəblərdən bu dəfə referendum aktı layihəsinə dair bütün bu prosedurlar kobud surətdə pozulub. Bu prosedurun pozulması bir növ fövqəladəlik hissi yaratmaya bilməz. Bu sorğu Venesiya Komissiyasına sentyabrın 6-da təqdim olunub. Cəmi 2 həftədən sonra Azərbaycanın rəy bildirmək hüququ əlindən alınaraq, bu rəy Venesiya Komissiyasının saytında dərc olunub".

**Ş.Əliyev əlavə edib ki, məhkəmədə qarşı tərəf ittiham edilməkdən əvvəl dinlənilmək hüququ verilir:** "Lakin bu hüquq bizim əlimizdən alınıb. 29 düzəlişdən ibarət referendum aktının müzakirəsinə dair rəydə deyilir ki, 60 gün müddətində referendumun keçirilməsi mümkün deyil. Lakin belə görünür ki, həmin 29 dəyişikliyə dair referendumla bağlı 14 gün müddətində rəyin hazırlanması mümkündür".

**Ş. Əliyev bildirdi ki, rəydə kifayət qədər qeyri-dəqiqliklər var, hətta kobud səhvlərə rast gəlinir:** "Məsələn, rəyin 25-ci bəndində konstitusiyanın 159-cu maddəsinə istinad edilir, ancaq konstitusiyamız cəmi 158 maddədən ibarətdir, 159-cu maddə yoxdur. Əsas narazılıqları icra hakimiyyəti şaqulisinin möhkəmləndirilməsi ilə bağlıdır. Söhbət referendum aktı qəbul edilsə, təsis olunacaq vitse-prezidentlər institutundan gedir. Yanaşma budur ki, təyinatlı vitse-prezidentlik institutu demokratik deyil. Hansı beynəlxalq sənəddə belə demokratik standart əksini tapıb? Belə demokratik standart yoxdur. Onlar Azərbaycan prezidentinin səlahiyyətlərini icra edə bilmədiyi təqdirdə onun vəzifəsini vitse-prezidentlərin əvəz etməsini qeyri-demokratik sayırlar. Normal müzakirələr keçirilsəydi, komissiya üzvlərinə demək olardı ki, elə ABŞ-da prezident öz səlahiyyətlərini icra edə bilmədikdə vitse-prezident icra edir. Vitse-prezident bu səlahiyyəti icra edə bilmədikdə, prezidentin səlahiyyətini seçilməmiş nazirlər ardıcıllıqla icra edir, heç kim də bunu qeyri-demokratik adlandırmır".

### "Bizimlə heç kim danışmaq istəməyib. Nə telefon zəngi, nə məktub gəlib. Nə rəsmi, nə qeyri-rəsmi belə bir cəhd olmayıb"

**Ş. Əliyev Nazirlər Kabinetinin ölkədə islahatların lokomotivinə çevrilə bilmədiyi barədə mətbuatda dərc olunan tənqidlərə də toxundu:** "Bu fikirlə müəyyən qədər razılaşmaq olar. Hər ay dəyişən iqtisadi vəziyyətdə, hər ay dəyişən maliyyə siyasətində Nazirlər Kabineti aparıcı rol oynaya bilməyib. Çünki Nazirlər Kabinetinin institusional quruluşu, iş fəaliyyəti bu cür iş fəaliyyəti üçün nəzərdə tutulmayıb. Çevik qərar qəbul edən institutun olması günün tələbidir".

"Venesiya Komissiyasının rəyində əsas arqumentlər ondan ibarətdir ki, təyinatlı vitse-prezidentlər institutu demokratik standartları pozur. Normal müzakirə olsaydı, onlardan soruşmaq olardı ki, bu, harada yazılıb? Onların rəyi heç bir demokratik ölkənin təcrübəsinə əsaslanmır. Belə demokratik standart yoxdur, onu heç kim qarşımıza qoya bilməz"-deyə, Ş.Əliyev bildirib.

Dövlət rəsmisi qeyd edib ki, 26 sentyabrda keçiriləcək referendumla bağlı komissiyanın hazırladığı rəydə kifayət qədər qəbulolunmaz məqamlar var.

**Ş.Əliyevin sözlərinə görə, Venesiya Komissiyasının digər narazılığı prezidentə parlamenti buraxmaq səlahiyyətinin verilməsi ilə bağlıdır:** "Bu, günün tələbidir. Parlamentin fəaliyyətində də pat situasiyası yarana bilər. Mətbuatda da vurğulanıb ki, bir sıra hallarda prezidentin parlamentə göndərdiyi qanun layihələri parlamentdə qəbul edilməyib. Məsələn, Fransa prezidenti parlamenti çox asanlıqla buraxa bilər".

**Şöbə müdirinin sözlərinə görə, Venesiya Komissiyası rəyində heç bir ölkənin təcrübəsinə əsaslanmır:** "Referenduma çıxarılan layihələr konstitusiyaya uyğunlaşdırılıb. Prezidentin səlahiyyət müddətinin 7 ilə çatdırılması məsələsi də mübahisələndirilib. Dünyanın bir çox ölkəsində belə bir müddət var. Hər 5 ilin 3 ilini Azərbaycan seçki qızdırması şəraitində yaşayır. Hər 5 ilin 3 ilində əvvəl prezident, sonra parlament, daha sonra bələdiyyə seçkiləri gəlir. Bu vəziyyətdə çıxış yolu kimi prezidentin mandatının 7 ilə kimi uzadılması təklif edilir. Çox maraqlıdır ki, Fransada 7 il müddətinin 2000-ci ildə Jak Şirakın təşəbbüsü ilə 5 il müddəti ilə dəyişdirilməsinin səbəblərini axtaranda yeganə onu tapa bildim ki, Şirak bu haqda cəmi iki söz demişdi: "7 il çoxdur, 5 il daha məqbuldur". Niyə daha məqbuldur? Nəyə görə? Heç bir izahatı yoxdur. Azərbaycana yönəldilən digər irad prezidentə növbədənkənar prezident seçkiləri təyin etmək səlahiyyətinin verilməsidir. Prezidentin səlahiyyət müddəti 7 il olduğuna görə, onun xalqa özünə qarşı inam votumu üçün müraciət etmək imkanı olmalıdır, bu da məntiqli bir haldır. Ümumiyyətlə, Venesiya Komissiyasının rəyi ilə tanış olan hər kəsdə bunun siyasi sifariş olduğu qənaəti yaranır. İki həftəyə bu dəyişikliklərə rəy vermək mümkün deyildi. AŞ PA sədri yalnız referenduma 20 gün qalmış Venesiya Komissiyasına müraciət edib. Mən bunu siyasi sifariş kimi qiymətləndirirəm. Avropa Şurası Parlament Assambleyasında müxtəlif ölkələrin deputatları var. Çox güman ki, bu sifariş AŞ PA-nın tərkibi ilə bağlıdır və siyasi proseslərin nəticəsidir. Bu, aysberqin bir hissəsidir, onun görünməyən tərəfi altdadır. O alt da nədən ibarətdir, onu demək çətindir".



### Şahin Əliyev: "Referendumun elan olunması Azərbaycan prezidentinin konstitusiya hüququdur və bu hüququ onun əlindən heç kim ala bilməz!"

**Avropa Parlamentinin Azərbaycanla münasibətləri normallaşdırmağa çalışdığı, bunun üçün Bakıya böyük bir nümayəndə heyətini göndərdiyi bir vaxtda, Venesiya Komissiyasının Bakıya qarşı "savaş" açmasının səbəbləri, bunun təsadüf, yoxsa razılaşdırılmış ad**dım olub-olmadığı barədə "Yeni Müsavat"ın əməkdaşının sualının cavabında Ş.Əliyev bunları bildirdi:** "Çox maraqlı sual verdiniz. Təəssüflər olsun ki, mən peşəkar hüquqşünasam və siyasətlə məşğul olmuram. Amma sizin sualınızda həmin suala cavab da var. Hesab edirəm ki, bu, təsadüfi proseslər deyil".

**Ş.Əliyev ardınca əlavə etdi:** "Bizə irad tuturdular ki, referendum aktının hazırlanmasına və müzakirəsinə parlament cəlb olunmayıb. Lakin 2009-cu ildəki referendum parlament tərəfindən təyin olunanda və müzakirələr aparılanda verilən rəydə yazılmamışdı ki, nəyə görə Azərbaycan Respublikasının İcra Hakimiyyəti cəlb olunmayıb. Referendumun elan olunması Azərbaycan Respublikası Prezidentinin Konstitusiya hüququdur və bu hüququ onun əlindən heç kim ala bilməz!

Mən tam rəsmi, tam məsuliyyətlə deyirəm ki, referendum aktı layihəsi ilə bağlı Azərbaycan Prezident Administrasiyası ilə nə Avropa Şurası, nə də Venesiya Komissiyasından kimsə əlaqə saxlamayıb".

**Dövlət rəsmisi bildirdi ki, sözügedən qurumlardan kimsə onlarla layihəni müzakirə etməyə səy göstərməyib:** "Bizimlə heç kim danışmaq istəməyib. Nə telefon zəngi, nə məktub gəlib. Nə rəsmi, nə qeyri-rəsmi belə bir cəhd olmayıb. Yalnız referenduma 20 gün qalmış AŞ PA Venesiya Komissiyasına sorğu verib. Bizim dinlənilmək hüququmuz əlimizdən alınıb, biz fakt qarşısında qoyulmuşuq".

**Ş.Əliyevin sözlərinə görə, Azərbaycanla ultimatum dildə danışırlar.**

**Rəsmi Bakının referendumla bağlı Venesiya Komissiyasına nə səbəbə müraciət etməməsinin səbəbləri barədə sualın cavabında Ş.Əliyev "biz hesab etmədik ki, bu dəyişikliklər bu cür mühüm xarakter daşıyır", dedi:** "Xaricilər heç cür başa düşmür ki, söhbət prezidentə əlavə səlahiyyətlər verilməsindən getmir. Vitse-prezidentlər əlavə səlahiyyətlər gətirmir. Söhbət idarəetmənin təkmilləşdirilməsindən gedir. Vitse-prezidentlər adı katiblər də ola bilərdi. Söhbət islahatların sürətlə həyata keçirilməsindən gedir. İnsan hüquqları ilə bağlı məsələlərə isə Venesiya Komissiyasının mənfi yanaşması olmayıb. İnsan hüquqlarına dair dəyişiklikləri də Venesiya Komissiyasına göndərməyə ehtiyac yox idi".

**PA təmsilçisi münasibətlərin perspektivləri barədə danışarkən xatırlatdı ki, Venesiya Komissiyasının rəyi məşvərətçi rəydir:** "Bu, məcburi rəy deyil. Yenə təkrar edirəm, bizim Venesiya Komissiyası ilə münasibətlərimiz peşəkarlıq üzərində qurulmuşdu. Qurumun tərkibində yüksək təcrübəyə malik peşəkarlar təmsil olunur. Biz həmişə onlarla müzakirələr aparmışıq, mübahisələr etmişik. Bir-birimizlə müzakirələrdə ya razılaşmışıq, ya da razılaşmamışıq, rəyin müddəaları ya dəyişib, ya dəyişməyib. Yəni bu, məhsuldar bir proses olub. İndi bu prosedur tam pozulub. Bu, Avropa Şurası daxilində gedən siyasi proseslərin nəticəsi, aysberqin görünməyən tərəfidir. Əks təqdirdə, bu tələm - tələsiklik nəyə lazım idi?"

**Ş.Əliyevin sözlərinə görə, qurumla Azərbaycan hökuməti arasında həyata keçirilən normal proseslər kobud şəkildə pozulub:** "Venesiya Komissiyasının oktyabrın 14-15-də plenar iclası olacaq. Bu rəy orada təsdiq olunmalıdır. Biz çalışacağıq ki, Azərbaycan hökumətinin o vaxta qədər hazırlanacaq rəyi rəsmi olaraq Venesiya Komissiyasının ekspert rəyinə əlavə olunsun".

**İqtidar təmsilçisi Venesiya Komissiyasının rəyinin siyasi sifarişli olduğunu da vurğuladı:** "Belə rəy yaranır ki, bu, siyasi sifarişdir. Ona görə ki, iki həftə ərzində bu rəyin tələm-tələsik hazırlanması mümkün deyil. AŞ PA sədrinin məktubu nə iyul, nə avqust, nə sentyabrda yox, referenduma cəmi 7 gün qalmış Venesiya Komissiyasına göndərilib. Mən bunu ancaq siyasi sifariş kimi qiymətləndirirəm".

**Qeyd edək ki, Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklər üzrə referendum sentyabrın 26-da keçiriləcək.**

**Elşad PAŞASOY**
**Foto: Məhəmməd TÜRKMƏN**

YENİ MÜSAVAT
N 208 (6529) 22 sentyabr 2016

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək referendumla bağlı uzunmüddətli müşahidəsini həyata keçirir. Assosiasiya bu işin icrasına 26 iyun 2016-cı il tarixdən başlayıb və 2016-cı ilin 26 avqustda ilkin hesabatını ictimaiyyətə təqdim edib.**

# "Mövcud mühit referendumun normal, demokratik şəraitdə keçirilməsinə imkan verir"

## AVCİYA referendumla bağlı aralıq hesabatını açıqladı

AVCİYA-nın mətbuat xidmətindən musavat.com-a verilən məlumatda bildirilir: "Assosiasiya uzunmüddətli müşahidə ilə bağlı "Aralıq Hesabat"ını 21 sentyabr 2016-cı il tarixində geniş ictimaiyyətə açıqlayıb.

Hesabat 26 iyul-21 sentyabr 2016-cı il tarixini əhatə edir. Aralıq hesabatda Azərbaycan Respublikasında keçirilmiş referendumlar haqqında məlumat, referendumqabağı siyasi mühitin təhlili, söz və mətbuat azadlığının vəziyyəti, referendum administrasiyasının fəaliyyəti, AVCİYA haqqında məlumat və 2 radio (İctimai radio, Azadlıq radiosu), 9 qəzet ( 3 iqtidar-"Azərbaycan", "Xalq", "Bakinskiy raboçiy", 3 neytral - "525-ci qəzet", "Ədalət", "Şərq" qəzeti, 3 müxalifət - "Azadlıq" qəzeti, "Yeni Müsavat", "Xalq Cəbhəsi") və 2 informasiya agentliyinin (Apa.az, Turan.info) monitorinqi öz əksini tapıb.

13 KİV-də iyulun 26-dan-sentyabrın 21-nə kimi referendumla bağlı 958 məlumat, məqalə, müsahibə verilib. Bunlardan 427-də referenduma müsbət, 398-də neytral, 101-də isə mənfi münasibət öz əksini tapıb. Referendumla bağlı bir ay ərzində ən çox məlumat "Azərbaycan" qəzetində (262), İctimai radioda (107), "Yeni Müsavat" qəzetində (90), Azadlıq Radosuda (86) verilib.

"Azərbaycan" qəzetində verilmiş 262 məlumatdan 169-u müsbət, 93-ü neytral, İctimai radioda verilmiş 107 məlumatdan 70-i müsbət, 37-i neytral olub. "Yeni Müsavat" qəzetində verilmiş 90 məlumatdan 23-ü müsbət, 44 neytral, 32-i mənfi, Azadlıq radosunda verilmiş 86 məlumatdan yalnız 12-i müsbət, 28-i neytral, 56-sı isə mənfi olmuşdur.

Müsbət hal ondan ibarətdir ki, monitorinq aparılan 13 KİV-in yönümündən asılı olmayaraq hamısında referendumla bağlı müsbət yazılar verilib. Bundan başqa, 13 KİV-in hamısında referendumla bağlı neytral məlumatlar da geniş yer alıb. Lakin 13 KİV- in 6-sında-("Azərbaycan", "Xalq", "Bakinskiy raboçiy", "Şərq qəzeti", İctimai radio, Apa.az) Referndum əleyhinə heç bir mənfi məlumat verilməyib. 7 KİV-də ("Azadlıq" qəzeti, "Yeni Müsavat", "Xalq Cəbhəsi", "525-ci qəzet", "Ədalət" qəzeti, Azadlıq radiosu,Turan.info) mənfi məlumatlar verilmişdir ki, bu da referendum qabağı təşviqat üçün demokratik şəraitin olmasını bir daha sübut edir".

**Məlumatda həmçinin qeyd olunur:** "Bir ay ərzində 13 KİV üzərində aparılmış monitorinq sübut edir ki, ölkədə fəaliyyət göstərən KİV-lərin mütləq əksəriyyəti referenduma müsbət yanaşaraq, bunu Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, inkişafına, insan haqlarının qorunmasına yaxından kömək edəcək amil kimi qiymətləndirmişlər.

Assosiasiya həmçinin "Azərbaycanda 2016-cı il referendumu ilə bağlı hüquqi çərçivənin müqayisəli təhlili" və "Müşahidəçilər üçün yaddaş" kitabçalarını nəşr edib. "Azərbaycanda 2016-cı il referendumu ilə bağlı hüquqi çərçivənin müqayisəli təhlili" kitabında referendumda konstitusiyaya nəzərdə tutulan əlavə və dəyişikliklərin Fransa, Niderland, Norveçin qanunvericiliyi ilə müqayisəsi verilib. Bundan başqa, assosiasiya referendum günü 3000 müşahidəçi ilə 65 DSK-da müşahidəni təşkil edəcək. Buna görə AVCİYA Seçki Qərargahı 26 avqust 2016-cı il tarixdən etibarən müşahidəçilərə seminarlar keçirməyə başlayıb. Artıq Şirvan, Hacıqabul, Sabirabad, Zaqatala, Balakən, Qax, Gəncə, Göygöl, Daşkəsən, Bərdə,Tərtər, Goranboy, Quba, Şabran, Biləsuvar, Lənkəran və Cəlilabad rayonlarında seminarlar başa çatıb. Assosiasiya yaxın günlərdə "Ambasador" hoteldə Bakı, Sumqayıt və Abşeron ərazilərindəki MnSK-larda müşahidə aparacaq şəxslərə seminarlar keçirəcək.

Assosiasiyanın "Aralıq Hesabatı"nda qeyd olunur ki, "Referendumqabağı siyasi mühitin ən mühüm cəhəti əksər region ölkələrindən fərqli olaraq Azərbaycan Respublikası daxilində stabilliyin mövcud olmasıdır. Bu əlverişli mühit referendumun normal, demokratik şəraitdə keçirilməsinə imkan verir".

❑ **M.MAHRIZLI**

# Türkiyədə çevriliş təhlükəsi qalır?

## **Hasan Oktay:** "Hərbi çevriliş təhdidi olmasa da, hakimiyyət gözlənilməz təhlükələrdən narahatdır"

**Türkiyədə 15 iyul qiyam cəhdindən sonra narahatlıq davam edir. Hökumət dövlət və ictimai qurumlarda, o cümlədən ordu, polis, məhkəmə, kəşfiyyat kimi strateji qurumlardakı FETÖ üzvlərini təmizləməyə çalışır. Bundan başqa, Türkiyə ilə yanaşı xarici ölkələrdə də "camaat"ın mümkün təhdidinə qarşı tədbirlər görməyə çalışırlar.**



Yeri gəlmişkən, BMT sessiyasında çıxış edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dünya ölkələrini FETÖ ilə mübarizəyə səsləyib. Türkiyə prezidenti deyib ki, BMT-yə üzv ölkələrin böyük bir qismi bu qruplaşmanın təhdidi altındadır. Onun sözlərinə görə, bu təşkilat Türkiyədən başqa dünyanı əsarət altına almaq kimi bir azğınlıq içərisindədir. Dövlət qurumlarına sızmaq, cəmiyyəti təsir altına almaq və iqtisadi qaynaqlara hakim olmaq hədəfindədirlər. Ərdoğan dövlətlərin FETÖ-yə qarşı mübarizə aparmağa çağırıb, əks halda, gec olacağını əlavə edib.

Qeyd edək ki, bir sıra yerli ekspertlərə görə, Türkiyə üçün hələ də təhdid var və ya ən azından hakimiyyət bu şəkildə davranır. Türkiyəli siyasi analitik doktor Hasan Oktayın fikrincə, çevriliş təhdidi bir neçə mərhələdə özünü göstərib. İlk mərhələ 2015-ci il 24 noyabr hadisələri idi. Ekspert bildirib ki, Rusiya təyyarəsinin vurulması Türkiyəni Rusiya ilə qarşıdurmaya cəlb etmək məqsədi daşıyırdı. Kifayət qədər riskli hərəkət olsa da, savaş baş vermədi.

H.Oktaya görə, ikinci addım baş nazir Davudoğlunun vəzifədən kənarlaşdırılması olub. Ekspert deyib ki, ABŞ-da Hillari Klintonun hakimiyyətə gəlməsi ehtimalında Türkiyədə hakimiyyət daxilində dərin bölünmə, Ərdoğana qarşı çevriliş olacağı qorxusu ilə Amerika ilə yaxın olan Davudoğlu vəzifədən kənarlaşdırılıb.

Ekspertə görə, Türkiyədə 15 iyul qiyamından sonra da ölkədə hökumətə qarşı çevriliş riski qalır. Baxmayaraq ki, böyük miqyasda təmizləmə aparılıb, minlərlə insan vəzifədən azad edilib, böyük təmizləmə prosesi hələ davam edir. Yeri gəlmişkən, ekspertlərə görə, təmizləmələrin hələ də davam etməsi şəbəkənin dərinliyini göstərməklə yanaşı, real təhdidin hələ də qaldığını sübut edir.

**H.Oktaya görə, hakimiyyəti narahat edən daha bir məqam ABŞ-dakı prezident seçkiləridir. Əgər H.Klinton seçkiləri qazanarsa, Ərdoğan hakimiyyətinə qarşı təzyiqlər və təhlükə daha da artacaq. Hazırda isə Ərdoğan hakimiyyəti növbəti təhlükəyə qarşı qabaqlayıcı addımlar atmağa çalışır. İşin pis ərəfi isə H.Oktaya görə, hazırda təhlükənin hardan və hansı şəkildə gələcəyinin məlum olmamasıdır:** "İşin də ən pis tərəfi budur ki, hazırda hökumət təhlükəni görsə də, onun hardan və necə başlayacağını bilmir. Bu isə iqtidarı daha da narahat edir. Daha sərt addımlar atmağa sövq edir. Bu isə getdikcə daha kütləvi cəzalandırmalara, qanunsuz addımlara səbəb olur. Bunun qarşısını almaq üçün hökumət demokratiya ənənələrinə daha sıx sarılmalıdır. Çünki əks təqdirdə, vəziyyət fəlakətli həddə doğru gedəcək".

H.Oktaya görə, yaxın zamanlarda hərbi çevriliş cəhdinin baş verməsi inandırıcı olmasa da, bu ehtimal tamamən kənara qoyulmayıb. Lakin o deyib ki, hakimiyyətə indi təhlükənin hardan və hansı şəkildə gələcəyi məlum deyil.

❑ **KƏNAN**



# ABŞ səfiri MSK-da oldu

## Sekuta bu qurumla sıx əməkdaşlıqdan məmnunluğunu vurğulayıb

**Sentyabrın 26-da konstitusiyaya təklif edilən dəyişikliklərlə bağlı referendum keçiriləcək. Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılması nəzərdə tutulur. Habelə prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilə artırılır. Prezident və parlament seçkilərində yaş məhdudiyyəti aradan qaldırılır. Bütün bunlardan başqa, prezidentə parlamenti buraxmaq səlahiyyəti də verilir.**

Müxalifət bu dəyişiklikləri təhlükəli, hakimiyyət təmsilçiləri isə vacib, vaxtı çatmış islahatlardan ötrü edildiyini bildirir.

Referendumla ələqədar təşviqat sentyabrın 24-də başa çatır, ayın 25-i, həftənin bazar günü "sükut günü"dür.

Referendumla ələqədar Mərkəzi Seçki Komissiyasında üç - "Yeni Azərbaycan", "Vətəndaş Cəmiyyəti" və "Bələdiyyə" təşviqat qrupu qeydiyyatdan keçib.

Referenduma 5 gün qalmış - sentyabrın 21-də ABŞ səfiri Robert Sekuta Mərkəzi Seçki Komissiyasında olub. MSK katibliyinin media və ictimaiyyətlə ələqələr şöbəsindən "Yeni Müsavat"a verilən xəbərə görə, MSK sədri Məzahir Pənahovla ABŞ səfiri Robert Sekuta arasında görüş keçirilib. R.Sekuta rəhbərlik etdiyi qurumun MSK ilə sıx əməkdaşlığından məmnunluğunu vurğulayıb, buna görə MSK sədrinə öz təşəkkürünü bildirib və 26 sentyabrda keçiriləcək ümumxalq səsverməsinə hazırlıqla bağlı görülmüş işlərlə maraqlanıb.

M.Pənahov qeyd edib ki, MSK beynəlxalq qurumlarla əməkdaşlığa hər zaman açıqdır və bu münasibətlər seçki və referendum praktikasının daha da təkmilləşdirilərək hazırkı inkişaf səviyyəsinə çatmasında və əldə olunan nailiyyətlərdə əhəmiyyətli rol oynayır. O, həmçinin referendumun yüksək səviyyədə təşkil olunması, azad, ədalətli və şəffaf keçirilməsi üçün Azərbaycanda hər cür şəraitin və demokratik mühitin olduğunu vurğulayaraq, ölkəmizin seçki (referendum) qanunvericiliyi, seçki komissiyalarının fəaliyyət prinsipləri və qarşıdan gələn ümumxalq səsverməsi ilə bağlı vətəndaşların referendumda iştirak hüquqlarının daha səmərəli təmin edilməsi üçün gerçəkləşdirilmiş genişmiqyaslı layihələri diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər və müxtəlif sahələrdə qurumlar arasındakı əməkdaşlığın mümkün perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

❑ **E.SEYİDAĞA**

# Ərdoğanın BMT-dəki sensasion çıxışına Azərbaycandan dəstək

## Politoloq: "Təşkilatda ciddi islahatlara həqiqətən son dərəcə ehtiyac var"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 71-ci sessiyasında çıxış edib. Çıxışında Ərdoğanın söylədiyi "Dünya indi bu 5 ölkəyə (BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ABŞ, Rusiya, Çin, Böyük Britaniya, Fransa) məhkum edilib" sözləri və BMT baş katibi Pan Gi Munun "bir neçə dövlət dünyanı girov saxlayır" bəyanatı günə öz damğasını vurmuş oldu.**

Ərdoğan deyib ki, 1-ci Dünya müharibəsi şərtləri içərisində qurulmuş BMT Təhlükəsizlik Şurasını uzun müddət bu şəkildə saxlamaq mümkün deyil: "Bütün dünyanın təmsil edilmədiyi BMT Təhlükəsizlik Şurası ola bilməz. Təsəvvür edirsinizmi, 3 ölkə Avropadan, 1 ölkə Asiyadan və bir ölkə ABŞ. Dünyanın digər ölkələri nə olacaq?"- Türkiyə lideri söyləyib. Türkiyə prezidentinin və BMT baş katibinin bu bəyanatları dünyada böyük əks-səda doğurub və BMT Təhlükəsizlik Şurası ilə bağlı ciddi diskussiyalara səbəb olub.

**Politoloq Qabil Hüseynliyə** görə, həm Ərdoğan, həm də Pan Gi Mun dünya üçün çox ciddi problem kəsb edən məsələni haqlı olaraq qaldırıblar: "Hegemon dövlətlərin təkcə dünyada nüfuz dairəsi uğrunda mübarizədə yox, həm də ayrı-ayrı beynəlxalq təşkilatlarda öz təsirlərini yaymaq uğrunda amansız mübarizə apardığı faktdır. Bunun zərbəsi isə digər dövlətlərə, xalqlara dəyir. Həmin iri dövlətlərin bir-biri ilə nüfuz mübarizəsi postsovet məkanında, Yaxın Şərqdəki münaqişələrdə, son zamanlarda isə Suriyada və İraqdakı müharibələrdə özünü göstərir. 5 dövlətin beşinin də günahlarını eyniləşdirmək, bərabərləşdirmək olmaz. Daha çox ifrata varan, qızışdırıcı rol oynayan, dünyanı müharibə həddinə çatdıran Rusiyadır, sonra ABŞ-dır. Postsovet məkanındakı bütün münaqişə ocaqlarını yaradan da, donduran da, idarə edən də Rusiyadır. Dağlıq Qarabağ münaqişəsi bu iki dövlətin geosiyasi mübarizəsinin əsirinə çevrilib. Suriyada da dünya eyni vəziyyətlə baş-başa qalıb. Dünyanı, əsasən də Türkiyəni və Avropanı təhdid edən qaçqın probleminin yaranmasında da məhz Rusiya ilə ABŞ-ın, Fransanın, Böyük Britaniyanın arasında gedən nüfuz savaşı rol oynayır. Dünyadakı münaqişə ocaqlarının söndürülməsi BMT Təhlükəsizlik Şurasından gözlənildiyi halda, onun 5 daimi üzvünün arasında gedən nüfuz mübarizəsinin münaqişələri alovlandırdığı, sönməyə imkan vermədiyi açıq görünür. Dünyada bir ABŞ-Rusiya qarşıdurması gedir və getdikcə mürəkkəbləşir. Bu qarşıdurma dünyadakı bütün münaqişə ocaqlarının mənbəyidir. Bu qarşıdurma dünyanı həqiqətən də girovluğunda saxlayır. BMT artıq ABŞ-la Rusiyanın siyasi rəqabət meydanına çevrilib. Dünyada sülhü və təhlükəsizliyi təmin etmək üçün bir normal layihəni BMT Təhlükəsizlik Şurasından keçirmək mümkün deyil. Çünki ya Rusiya, ya ABŞ, yaxud da onların müttəfiqlərindən kimsə öz veto hüququndan istifadə edərək belə qətnamələrin keçməsinin qarşısını alır".


Rəcəb Tayyib Ərdoğan

**Politoloq vurğuladı ki, həm Pan Gi Mun, həm də Ərdoğanın dünyanın bir nömrəli beynəlxalq təşkilatında ciddi islahatlar aparmaq təklifləri neçə ildir irəli sürülür və həyata keçməsinə yenə həmin beşlik imkan vermir:** "İslahatlara isə son dərəcə ciddi ehtiyac var. Yaponiya, Almaniya, Türkiyə və başqa dövlətlər BMT-nin səmərəsiz işlədiyini, sülhə və təhlükəsizliyə lazımi töhfə verə bilmədiyini, bunun da əsas səbəbini Təhlükəsizlik Şurasının daimi üzvü olan bir neçə dövlətin hegemonluğu ilə izah edirlər. Bu dövlətlər açıq surətdə və haqlı olaraq təklif edir ki, BMT Təhlükəsizlik Şurası yenidən qurulmalıdır. BMT TŞ-nin beş daimi üzvü daha böyük səlahiyyətlərə malik olmamalıdır, veto hüquqi səlahiyyətindən məhrum edilməlidir. Yaxud Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir. Məsələn, Yaponiya və Almaniya tərkibin 15-ə qaldırılmasını təklif edirlər. BMT-nin sərəncamındakı məhdud miqdarda olan qoşun kontingentinin səlahiyyətlərini genişləndirməyi və sayını artırmağı təklif edirlər. BMT üçün ciddi məsələlərdən biri quruma üzvlük haqqı verilməsində problemlərdir. Elə dövlətlər var ki, 30 ildir BMT-yə bir dollar da üzvlük haqqı ödəmir. Elə vaxtlar olur ki, BMT-nin büdcəsinin 45-50 faizini Amerika ödəməli olur. Rusiyanın BMT-yə üzvlük haqqı borcları var. Amma Azərbaycan və Türkiyə vaxtlı-vaxtında üzvlük haqqını ödəyir. Bütün bu problemlərin həlli üçün BMT-də islahatlara başlamaq zərurəti var".

❑ Etibar SEYİDAĞA

# Avropa İttifaqı ilə barışıq: rəsmi Bakı həm də uduşda...

**Avropa İttifaqı ilə Azərbaycan arasında son bir ildə yaşanan gərginlik sentyabrın 20-də başa çatdı. Birliyin Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətinin Bakıya səfəri və iqtidar təmsilçiləri ilə görüşü ötən il sentyabrın 10-da Avropa Parlamentində ölkəmiz əleyhinə qəbul edilən qətnamədən sonra pik həddə çatan münasibətləri yeni məcraya yönəltdi.**

Avropalı qonaqların prezident İlham Əliyev, parlamentin sədri Oqtay Əsədov, eləcə də Milli Məclisdə Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun rəhbərlik etdiyi heyətlə görüşü zamanı ciddi mesajlar verildi. Görüşlərdən sonra bu qənaətə gəlmək olar ki, Avropa artıq Azərbaycanla münasibətlərin birmənalı şəkildə düzəlməsinin tərəfdarıdır.

Ekspertlər Aİ ilə Azərbaycan arasındakı son günlərdəki müsbət gəlişmələrin gələcək baxımından hər iki tərəf üçün müsbət töhfələr verəcəyini bildirirlər.



### Elxan Şahinoğlu: "İlham Əliyevin detallarla zəngin çıxışı..."



### İqbal Ağazadə: "Münasibətlərin davamlı olacağına inanıram"



### Novella Cəfəroğlu: "Prezidentlə görüşən qonaqlar..."

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, Avropa Azərbaycanla münasibətlərin normallaşması yollarını arayır: "Prezident İlham Əliyevin nümayəndə heyəti ilə görüşə hazırlaşdığı hiss olunurdu. Dövlət başçısının masasının üzərində Avropa Parlamentinin qətnaməsinin mətni var idi və prezidentin avropalı deputatlarla həmin sənədi bənd-bənd müzakirə etməsi maraqlı idi. Qətnamənin qəbulundan bir il sonra Avropa Parlamenti yenidən rəsmi Bakı ilə dialoqa ehtiyac duyub. İlham Əliyev ilk dəfə idi ki, konkret adlar çəkərək sənəddə göstərilən insanlara qarşı Azərbaycanda heç bir təzyiqin olmadığını bildirdi. İlham Əliyev görüşdə ATƏT-in Bakı ofisinin niyə bağlandığını ilk dəfə izah etdi. Bu da Azərbaycan cəmiyyəti üçün yenilik idi. Bu görüşə qədər bəziləri düşünürdü ki, prezidentin bir sıra ictimai fəalın fəaliyyətindən xəbəri yoxdur. Ancaq İlham Əliyev Emin Millidən tutmuş Emin Hüseynova qədər adları saydı və onlarla bağlı problemlərin mahiyyətindən söz açdı. Bu o deməkdir ki, Azərbaycanda geniş ictimaiyyətə bəlli olan elə bir məsələ yoxdur ki, prezidentin ondan xəbəri olmasın. İlham Əliyevin detallarla zəngin çıxışı ondan xəbər verir ki, prezident Avropa Parlamentinin Azərbaycanla əlaqələri bərpa etmək istəyindən məlumatlıdır. Avropa Parlamenti ilə Azərbaycan arasındakı münasibətlərin dondurulması Brüsseli narahat edir. Doğrudur, rəsmi Bakı Avropa Komissiyası ilə əlaqələrini davam etdirir, ancaq bu azdır. Brüsselin Azərbaycanla münasibətlərinə yenidən baxmasının bir neçə səbəbi var. Birincisi, Azərbaycan böyük enerji və nəqliyyat layihələri hesabına bölgənin əsas dövlətinə çevrilir. Bu səbəbdən Azərbaycanla soyuq münasibətlər Brüsselin maraqlarına cavab vermir. İkincisi, Azərbaycanla Avropa Birliyi arasındakı soyuq münasibətlər Rusiyanın maraqlarına cavab verir. Brüssel isə Rusiyanın Cənubi Qafqazdakı maraqlarının artmasından narahatdır. Üçüncüsü, Brüssel rəsmi Bakı ilə strateji əməkdaşlığı genişləndirən saziş imzalamaq istəyir. Azərbaycanın Avropa Birliyinin 9 üzv dövləti ilə strateji tərəfdaşlıq sazişi var. İlham Əliyev Avropa Parlamentinin qətnaməsini tənqid etməsinə baxmayaraq, Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsini rəsmi Bakının yüksək qiymətləndirdiyini bildirdi. Bunun özü rəsmi Bakının Avropa Parlamenti ilə əlaqələrin yenidən bərpasında maraqlı olduğunu göstərir. Ancaq Avropa Parlamentinin Azərbaycanla bağlı mövcud qətnaməsi varkən, bu əlaqələrin bərpası və inkişafı mümkündürmü? Və ya bu qətnamə varkən rəsmi Bakı Avronestə geri qayıdacaqmı? Avropa Parlamentinin bir il əvvəl qəbul etdiyi qətnamədən imtinası mümkün görünmür. Belə olan halda Bakıya Avropa Parlamenti ilə əməkdaşlığın konturlarını müəyyənləşdirmək çətin olacaq. Ya da qətnamədə adları çəkilən şəxslər əfv olunmalıdır ki, həmin sənəd özü-özlüyündə mahiyyətini itirsin. Maraqlıdır ki, Avropa Parlamenti Azərbaycanda demokratiya ilə bağlı qətnamə qəbul edərkən Ermənistanda demokratiyanın və insan haqlarının vəziyyəti ilə bağlı heç bir qətnaməsi yoxdur. Bunu İlham Əliyev də qeyd etdi. Rəsmi Bakı bunu Avropa Parlamentinin məsələlərə ikili standartlardan yanaşması kimi izah edir. İlham Əliyev qətlə yetirilən jurnalist Rasim Əliyev məsələsində də tam haqlıdır. Hamıya bəllidir ki, idman müxbiri hansı səbəbdən və kimlər tərəfindən qətlə yetirilib. Bunda hakimiyyəti günahlandırmaq həqiqətən ədalətsizlikdir. Avropa Parlamentinin qətnaməsinin başqa bəndləri ətrafında mübahisə etmək mümkündür, ancaq Rasim Əliyevin qətlinə görə prezidenti günahlandırmaq absurddur".

**Ümid Partiyasının sədri İqbal Ağazadə ortada Belarus nümunəsinin olduğunu qeyd etdi:** "Uzaqda tutmaqla ölkələrin Avropaya inteqrasiyasına nail olmaq mümkün deyil. Daha fərqli nəticələr ortaya çıxır. Sıx tutmaqla ölkələrin demokratikləşməsinə daha çox yardım edilir. Ona görə Avropa bu xətti seçmişdir. Keçən il Azərbaycanla bağlı fərqli mövqe tutuldu, müxtəlif qərarlar qəbul edildi. Amma sonradan bu xəttə qayıdıldı. Bu yolla Avropa problemli ölkələrdə həm mövqelərini gücləndirir, həm də problemləri həll edir. Uduş hər iki tərəfdədir. Azərbaycanda demokratiyanın inkişafında Avropa maraqlıdır. Eyni zamanda Azərbaycan bu yolla güclü bir dövlət halına gələ bilir. Bu münasibətlərin davamlı olacağına mütləq inanıram".

**Aİ nümayəndələrinin hüquq müdafiəçiləri ilə görüşündə iştirak edən Novella Cəfəroğlu gələcəkdə bu münasibətlərin bəhrə verəcəyini düşünür:** "Onlardan xahişim oldu ki, Azərbaycanı əzməyin, Rusiya tərəfə atmayın. Siyasi məhbusları azad etdirəcəyik, digər problemlər həll olunacaq. İslahatlara ehtiyacımız var. Dəyişikliklərin olacağına çox inanıram. Bütün bunlara iradə lazımdır. Prezidentlə görüşən qonaqlar səmimi görüşün alındığını bildirdilər. Daim inamla yaşamışam. Belə olmasaydı, digərləri kimi ayrı dövlətdə yaşayardım, oradan ölkəmizi tənqid edərdim. Azərbaycanda oturub bu problemləri həll etməyə çalışmaq, xaricdə olub, qrant alıb, Azərbaycanı söyməkdən daha ləyaqətlidir".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 208 (6529) 22 sentyabr 2016



# Gül camalımız haqda

Zamin HACI
zaminhaci@gmail.com

**Biz də heyranlıq bildirən bir ifadə var: "Yemə, içmə, xətti-xalına, gül camalına tamaşa elə". Məncə, biz bu ifadəni artıq iqtidara, onun uğurlu daxili və xarici siyasətinə nəzərən səsləndirsək, yeridir. İqtisadi durum ağırdır, yemək-içmək azalır, ancaq dekorativ gözəlliyimiz ki, hələ yerindədir! Çıxıb bulvarda pinqvin binaların fonunda ac qarına çoxlu şəkil çəkdirsək, ermənilərin bağrı çatlayar.**

Neft Şirkətinin istiqraz buraxması da çox xoş oldu, çünki mənə nənəmi xatırlatdı. Rəhmətlik arvad 1992-ci ildə ölüb, sağlığında, sovetlərin 80-ci illərində isə əsas məşğuliyyəti axmaq kommunist mətbuatında hərdən çıxan istiqraz nömrələrini axtarmaq idi. Demək, sovet hökuməti pis vaxtlarda camaata maaş əvəzinə çoxlu istiqraz-zad sırımışdı, sonra əlinə bir qədər neft pulu keçəndə bunu guya qaytarırdı, əslində isə lotoreya kimi oynayırdı - kimin istiqrazının nömrəsi uduşa düşsə, ona qəpik-quruş pullar verirdilər. Yazıq arvad da hər dəfə bu "zayom" çıxan qəzetləri əmimlə birgə qarşısına qoyub rəqəm tutuşdururdu. Çox az hallarda nəsə düşürdü.

İndi "gətirin 1000 dollar verin, sizə Neft Şirkətinin 1 istiqrazını sataq" söhbəti təxminən həmin məsələdir. Xeyir ola? Tutaq ki, kimsə aldanıb apardı yastığın altındakı pulu verdi, sonra Neft Şirkətinin dəyəri daha da düşdü - pulu kim qaytaracaq? Çünki burada qarant-zad yoxdur. Daha doğrusu, iqtidar bəyan edib ki, Neft Şirkətinin buraxdığı istiqrazın qarantı elə Neft Şirkəti özüdür. Bəh-bəh... Nə gözəl iqtisadiyyatdır. Mən bankdan beş manat pul alsam, əlli nəfəri zamin durmağa məcbur edirlər, sonra mən ölsəm, pulu o yazıqlardan tuturlar, ancaq özlərində qarant elə özləridir. Millət də yedi dərhal. Aydın məsələdir ki, bu istiqrazlar da oliqarxlara-filana zorla sırınacaq.

Yeri gəlmişkən, poçtumda Mehralı İsgəndərov adlı oxucumuzun təxminən bu temada maraqlı məktubu var, gəlin, oxuyaq: "Mən dövlətçiliyə kölgə salmaq istəmirəm. Ancaq millət olaraq anlamadığımız məsələ var ki, düşünməyə dəyər. (Yazıq camaatı gör necə sıxışdırıblar, bir kəlmə sözünü demək üçün də planetin o başından fırlanıb gəlir - Z.H.) Məsələn, mən və xanımım təqaüdçüyük. Təqaüdlər hər ayın əvvəli, yəni ayın 1, ya 2-sində verilməlidir. Lakin ayın 8-10-da, hətta elə olur 15-20-nə çəkir. Bu gecikməyə görə bank olaraq heç kimə heç bir faiz ödəmirlər. Lakin biz hər ayın 6-sı elə həmin banka kredit borcumuzu ödəməyə gedəndə gecikməyə görə nəinki hər günə, hətta hər saata görə faiz hesablayıb pul tuturlar. Əcəba, bizim dövlət bankı bildiyimiz bu bankın fırıldağından doğrudanmı prezidentin xəbəri yoxdur? Yox, xəbəri varsa, niyə tədbir görmür?"

Təəssüf ki, oxucu bankın adını yazmayıb, ancaq mənə də təəccüblü gəldi: belə dələduzluğu necə eləmək olar axı? Sən özün təqaüdçünün hesabına pulu vaxtında keçirmirsən, sonra isə başqa krediti ödəyərkən gecikməyə görə elə onun özündən cərimə tutursan. Nə deyim. Bu həyasızlığı təsvir eləməyə qələmim acizdir. Cabir müəllim demişkən, qoy millətdə ruh yaşasın!

Belə halların yaranması millətin öz günahıdır, ora-bura yozmağın mənası yoxdur. Misal üçün, təzəlikcə Lənkəranda bir hadisə olmuşdu, icra başçısı yuxarı balla universitetə girən tələbələri toplayıb onların hərəsinə bir elektrik çayniki vermişdi. İstəsə vedrə də bağlayardı, neyləmək olar? Məni isə başqa şey düşündürdü. Hamı sosial şəbəkədə bu səfeh icra başçısını tənqid edirdi və demək olar hamıda motiv bu cür idi: nə üçün o, belə ucuz mükafat veribdir? Niyə xalqdan oğurladığından daha çox ayırmayıb və sairə?

Halbuki o icra başçısının normal dövlətdə ixtiyarı yoxdur kiməsə hədiyyə versin. Camaat, media basıb onun gözünü çıxardar, deyərlər, pulu hardan almısan?! Biz isə oğurluğa pis baxmırıq, təki bizə də ordan pay düşsün. Düşəndə də babat pay olsun, xırda-mırda dilənçi payına razı deyilik. Vəziyyət budur. Çayniki başçının başına çırpmaq əvəzinə, samovar istəyirik. Ona görə də nəlbəkimiz də yoxdur millət olaraq...

# Qarabağ səmasında barıt qoxusu - savaş riski yenə öndə

**MDB-nin son Bişkek toplantısında Ermənistan prezidenti Serj Sərkisyanın məlum çıxışı işğalçı tərəfin Qarabağ məsələsində qeyri-konstruktiv mövqe tutmaqda davam etdiyinə şübhə yeri saxlamadı. Sərkisyana Azərbaycan prezidenti İlham Əliyevin sərt cavabı isə düşmən tərəfin problemin ədalətli həllindən nə qədər uzaq olduğunu başqa bir yandan təsdiqləmiş oldu.**




## Ərdoğandan müharibə mesajı, Ollanddan görüş ismarışı - hansı yol seçiləcək?

### Aprel döyüşlərindən sonra sülh danışıqları ən kritik dönəmə girib; **ekspertdən xəbərdarlıq:** "Bu dəfə Putin müharibəni dayandıra bilməyəcək, çünki..."

Bu gerçəyi dünən İrəvanda Ermənistanın formal müstəqillik günündə düzənlənən və daha çox Rusiya silahları və döyüş sistemlərinin nümayişi təsiri bağışlayan hərbi parad da ortaya qoydu. Bütün bunlar o anlama gəlir ki, işğalçı ölkə konfliktin həllinə yol açacaq addıma - Azərbaycan ərazilərini boşaltmağa hazır deyil. Sülh prosesinin ləngiməsi isə sövq-təbii münaqişə zonasında yeni müharibə riskinin artması deməkdir. Çünki istənilən sülhün, atəşkəsin alternativi - müharibədir.

*****

Son olaraq belə bir xəbərdarlıqla Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Məclisinin Nyu-Yorkdakı 71-ci sessiyasında çıxışı zamanı bəyan edib. Türkiyə lideri deyib ki, Qafqazdakı konfliktlərin təzədən qaynar fazaya keçmə təhlükəsi var, müharibə riski qalır.

Şübhəsiz ki, məhz müharibə təhlükəsindən çıxış edərək də, Fransa prezidenti Fransua Olland problemin dinc nizamlanması çərçivəsində Azərbaycan və Ermənistan rəhbərlərini Parisdə qəbul etməyə hazır olduğunu bildirib. Bu haqda Ermənistan prezidentinin mətbuat xidməti məlumat yayıb. Məlumata görə, Ollandın təklifi onun S.Sərkisyana Ermənistanın sentyabrın 21-də qeyd olunan müstəqillik günü münasibətilə yolladığı təbrik məktubunda yer alıb.

"Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sərkisyanı Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar prosesi çərçivəsində Parisdə qəbul etməyə hazıram", - deyə məktubda vurğulanır. "Dağlıq Qarabağ münaqişəsinin istisnasız olaraq, danışıqlar yolu ilə həllinə sadiq qaldığımı bir daha təsdiqləyirəm. Bu münaqişənin fövqəladə şəkildə çox uzanan həlli ilə bağlı tədbirləri müzakirə etmək üçün Parisdə Azərbaycan və Ermənistan rəhbərlərini qəbul etməyə hazıram", - deyə Fransa lideri qeyd edib.

Göründüyü kimi, rəsmi Paris də mövcud status-kvonun "fövqəladə şəkildə çox uzanması"dan narahatdır. Di gəl, problemin həllində açar rol Fransaya deyil, Rusiyaya məxsusdur. Rusiya isə tələsənə oxşamır və əsas diqqətini hələ ki Azərbaycanla Ermənistan arasında hərbi balansın qorunmasına və bu zaman silah ticarətini həyata keçirməyə yönəldib. Yəni belə çıxır, münaqişənin qalması həm də Rusiya büdcəsinə əlavə paralar gətirdiyindən, Moskva onun həllinə can atmır. Bu siyasət isə əksər siyasi və hərbi analitiklərə görə, bölgəyə yaxşı heç nə vəd eləmir.

*****

**"Rusiyanın yürütdüyü siyasət ucbatından Cənubi Qafqaz barıt çəlləyinə çevrilməkdədir". Bu barədə axar.az-a politoloq Qabil Hüseynli danışıb. O, öncə Rusiyada parlament seçkiləri, Ermənistanda isə hökumətin istefası fonunda hər iki ölkənin gələcək siyasətinə nəzər salıb:** "Rusiyada siyasi partiyaların nisbəti əvvəlki kimi qalır, yəni hər şey Putinin nəzarəti altında həyata keçirilir. Ona görə də bundan sonra Rusiyanın siyasətində heç bir ciddi dəyişiklik olmayacaq. Rusiya ilə yanaşı, Ermənistanın siyasətində də yenilik gözləmirəm. Nə qədər ki, Rusiya və Putin var, Sərkisyan və onun quldur dəstəsi də mövcud olacaq. Bu fonda da Dağlıq Qarabağ məsələsində hansısa yeni nüansların ortaya çıxacağını söyləmək çətindir. Əksinə, problemin sülh yolu ilə həllini çətinləşdirən addımlar atılır. Məsələn, Rusiya Ermənistanı yeni "Buk" tipli müharibə silahları ilə silahlandırmağa başlayıb. Hansı ki, onların dəyəri 1 milyard dollara yaxındır. Qafqazda silahlanmanı sürətlə davam etdirməklə Rusiya eyni zamanda xeyli qazanc əldə edir. Belə ki, Ermənistana havayı versə, eyni silahlardan Azərbaycana da satacaq".

**Politoloqa görə, Qarabağ probleminin həllinə dair Rusiyada hazırlanmış Lavrov və ya Putin planının mahiyyətində elə də ciddi dəyişiklik gözlənilmir:** "5 rayonun geriyə qaytarılması ətrafında spekulyasiyalar davam edəcək. Ermənistan isə növbəti danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutacaq. Pozitiv nəticə gözləmək çox çətindir. Nə qədər ki, BMT, ATƏT prosesə fəal surətdə müdaxilə etməyib, Qərb, ilk növbədə ABŞ Dağlıq Qarabağı özünün əsas xarici siyasətlərindən birinə çevirməyib, Rusiyanın spekulyasiyaları davam edəcək".

**Sabiq dövlət müşavirinin qənaətincə, belə gedişat regionda vəziyyəti gərginləşdirə bilər:** "Azərbaycan yenidən öz torpaqlarını azad etmək üçün həlledici hərəkətə keçə bilər - ancaq müəyyən hazırlıqlardan sonra. Azərbaycan indi Rusiya ilə danışıqlar aparır, yeni növ silahlar almaq istəyir. Kremlin yürütdüyü siyasət ucbatından Cənubi Qafqaz barıt çəlləyinə çevrilir. Üstəlik, müharibə başqa ölkələri də cənginə ala bilər. Beynəlxalq təşkilatlar Azərbaycan-Ermənistan arasında müharibənin yenidən alovlanmasına imkan verməməlidir. Çünki budəfəki müharibə Putinin istəyi ilə dayanmayacaq, başlasa, ölüm-dirim savaşına çevriləcək. Ona görə də bəri başdan Ermənistan danışıqlarda konstruktiv addımlara məcbur edilməlidir. Azərbaycanın iqtisadi gücü, yeritdiyi siyasət, Qoşulmayanlar Hərəkatına 3 illik sədr seçilməsi ölkənin beynəlxalq aləmdə artan nüfuzuna dəlalət edir. Azərbaycan məhz bu üstünlüklərindən istifadə etməklə, Rusiyaya sığınmasına baxmayaraq, Ermənistan kimi kiçik bir dövləti gec-tez torpaqlarımızdan çıxmağa vadar edəcək".

*****

**Bellikl, sərt reallıq budur ki, işğalçı Ermənistanın aprel müharibəsindən sonra da vasitəçi dövlətlər tərəfindən cəzasız saxlanması yeni savaş riskini xeyli artırıb. Qarabağ səmasından yenə barıt qoxusu gəlir, kritik bir dönəmə daxil olmaqdayıq.**

❑ Siyasət şöbəsi

# İsraili işğalçı adlandıran ABŞ prezidenti Ermənistanın adını niyə çəkmir...

## Ekspertlər Obama dövrünü dünyada "müsəlman qırğını mərhələsi" adlandırdılar; **Fərəc Quliyev:** "Azərbaycan Qarabağ məsələsində ABŞ və digər onun kimi dövlətlərə ümid etməməlidir"

**ABŞ prezidenti Barak Obama BMT Baş Assambleyasının bugünlərdə keçirilən 71-ci sessiyasında bəyan edib ki, İsrail Fələstin torpaqlarının işğalını dayandırmalıdır. B.Obama qeyd edib ki, əgər fələstinlilər İsrailin qanuniliyini tanıyarlarsa, İsrail də etiraf edərsə ki, Fələstin torpaqlarını daim işğal edə bilməz-onda həm israillilər, həm də fələstinlilər üçün yaxşı olar.**

Obama Ukrayna ərazisi olan Krımın da Rusiya tərəfindən işğal edildiyini deyib. Maraqlıdır ki, Barak Obama ABŞ prezidenti kimi BMT Baş Assambleyasındakı sonuncu çıxışında işğallardan danışarkən Qarabağın işğal olunması barədə heç bir fikir bildirməyib, İsrail kimi yaxın müttəfiqini dolayısı ilə işğalçı adlandıran Obama Rusiyanın forpostu olan Ermənistanı işğalçı adlandırmayıb. Qeyd edək ki, ümumiyyətlə götürsək, Barak Obama 8 illik hakimiyyəti dövründə Ermənistanın işğalçı olduğunu qəti şəkildə dilinə gətirməyib.



Bu barədə danışan **deputat Fərəc Quliyev** hesab edir ki, ABŞ prezidentinin Fələstin torpaqlarının işğal olunduğunu deməsi, İsraili bu torpaqların işğalına son qoymağa çağırması səmimi deyil. Barak Obama bu cür bəyanat verməklə prezidentliyinin sonlarına yaxın dinlərarası münasibətlərdə heç bir ayrıseçkiliyə yol vermədiyini nümayiş etdirmək istəyib. Əgər ABŞ, onun prezidenti bu məsələdə səmimi olsaydı, məsələlərə ikili standartla yanaşmasaydı, Ermənistanı işğalçı adlandırmalıydı: "Barak Obama Ermənistanı işğalçı adlandırmır. Onun Qarabağ məsələsində susqunluğu onu göstərir ki, xristian təəssübkeşliyi erməniləri işğalçı adlandırmağa imkan vermir. Fələstinlə bağlı dedikləri də görüntü üçündür. Barak Obamanın hakimiyyəti dövrü dünyada müsəlmanların ən çox qırıldığı, ən çox müsəlman dövlətləri dağıdılan bir dövr oldu. Barak Obama indi Fələstinə xoş gedəcək nə danışsa da, reallıq ortadadır.

Qarabağ məsələsində susqunluq, BMT tribunasından BMT-nin Qarabağın azad olunması ilə bağlı 4 qətnaməsinə etinasızlıq göstərmək, super güc və ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlət kimi biganəlik nümayiş etdirilməsi onu göstərir ki, ABŞ öz maraqlarını hər şeydən üstün tutur. Azərbaycan Qarabağ məsələsində ABŞ və digər onun kimi dövlətlərə ümid etməməlidir. Azərbaycan etnik baxımdan özünə yaxın olan cümhuriyyətlərlə yeni formatlar haqqında düşünməlidir".

**Politoloq Natiq Miri də hesab edir ki, ABŞ prezidentinin Ermənistanı işğalçı adlandırmaması ikili standartların əyani sübutlarındandır:** "Ermənistanın işğalçı adlandırılmamasında bir çox siyasi faktorlar rol oynayır. Bu, təbii ki, Ermənistanın güclü və qüdrətli dövlət olmasına dəlalət etmir. Burada söhbət ondan gedir ki, bu bölgədə ABŞ Ermənistanı Rusiyanın monopoliyasından çıxarmaq istəyir. Ona görə də Ermənistanı özündən uzaqlaşdıra biləcək addımlar atmaq istəmir. Digər tərəfdən də nəzərə almaq lazımdır ki, ermənilər həm də bir xristian toplumudur. ABŞ bölgədəki xristian dövlətinin müsəlman Türkiyə və Azərbaycanın arasında əzilməsində maraqlı deyil. İkili standartlarla yanaşma siyasəti də ABŞ prezidentinə imkan vermir ki, işğalçını öz adı ilə çağırsın. Digər səbəblərdən biri ABŞ prezidentinin Azərbaycandakı hakimiyyətə münasibətidir. Azərbaycan bu münasibəti dəyişmək üçün demokratik islahatlara getməklə dəyişə bilər. Azərbaycan cəlbedici olmalıdır ki, Qarabağ kimi böyük probleminin həllinə ciddi dəstək ala bilsin".

❑ **Etibar SEYİDAĞA**

# Putin "kəmərləri sıxır" - Dövlət Təhlükəsizlik Nazirliyi niyə yaradılır?

## **İlham İsmayıl:** "Xalqın narazılığı artdıqca, Rusiya bunun qarşısını almağı iqtisadi reformalarda yox, gücdə görür"

**Rusiyada 2018-ci ilin prezident seçkilərinə qədər indiki Federal Təhlükəsizlik Xidmətinin (FTX) bazasında Dövlət Təhlükəsizliyi Nazirliyinin yaradılacağı barədə xəbərlər yayılıb. Güc strukturlarında və hüquq-mühafizə orqanlarında irimiqyaslı islahatların aparılması planlaşdırılır. Virtualaz.org xəbər verir ki, bu haqda "Kommersant" Kremldəki və digər strukturlardakı mənbələrə istinadən yazır.**



Federal Mühafizə Xidməti və Xarici Kəşfiyyat Xidmətinin bu nazirliyin tərkibinə daxil olacağı deyilir. İstintaq Komitəsi bu orqana nəzarət edən Baş Prokurorluğun tərkibinə veriləcək. Fövqəladə Hallar Nazirliyi ləğv olunacaq, onun funksiyaları Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyi arasında bölünəcək.

Yeni yaradılacaq Dövlət Təhlükəsizliyi Nazirliyi bütün digər güc və hüquq-mühafizə orqanlarına faktiki nəzarət edəcək, onların təhlükəsizliyi üçün cavabdehlik daşıyacaq.

Xatırladaq ki, Azərbaycanda buna bənzər hadisələr, yəni xüsusi xidmət orqanında ciddi islahatlar 11 ay öncə yaşanmışdı. Fəaliyyətinə xitam verilmiş MTN-in rəhbərliyində formalaşmış qruplaşmasının zərərsizləşdirilməsindən sonra prezident İlham Əliyev bu strukturu ləğv edib. Onun bazasında Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılıb.

**Sabiq MTN polkovniki, politoloq İlham İsmayıl bildirdi ki, vaxtilə bu qurumu Lenin fövqəladə komissiya kimi yaradıb:** "Rusiya bu günə qədər Leninin yaratdığı komissiyanın funksiyasını yerinə yetirib. Sadəcə, adlar dəyişib, özü də 14 dəfə. Amma idarəçilik, hətta bina belə yerində qalıb. SSRİ dağılandan sonra ad iki dəfə dəyişib, son adı Federal Təhlükəsizlik Xidməti idi. İndiyə qədər bir dəfə Dövlət Təhlükəsizlik Nazirliyi adı altında qurum Rusiyada olub. Amma niyə Putin bu addımları indi atır? Putin keçmişdə KQB-də işləyib, podpolkovnikdir. Bu şəxs xüsusi xidmət orqanının funksiyalarını daha da artırmaq istəyir. Buna səbəb də ölkəni bürüyən iqtisadi böhrandır. Xalqın narazılığı artdıqca, Rusiya bunu qarşısını almağı iqtisadi reformalarda yox, gücdə görür. Sanki repressiyaları gücləndirməklə xof yaradılır və bu yolla mövcud hakimiyyətin dayaqları gücləndirilir. Onsuzda FTX əməkdaşlarının Rusiyada böyük funksiyaları var. Onların kəsdikləri başa sorğu-sual yoxdur. Maliyyə məsələləri bu qurumun nəzarəti ilə həyata keçirilir. Rusiyada kəşfiyyat və əks-kəşfiyyat ayrıdır. Ola bilsin ki, sovet dövründə olduğu kimi bunlar birləşdirilsin və bir nazirliyin tərkibi altında fəaliyyət göstərsinlər. Putin hakimiyyətini güc yolu ilə qorumaq üçün belə islahatlar həyata keçirmək istəyir. Burada başqa yol yoxdur. Çünki görür ki, getdikcə narazılıq artır. Təəssüf ki, Rusiyada bu xətt götürülüb. Bu prosesin başqa ölkələrə sirayət etməsi tamamilə mümkündür. Rusiyanın bu sistemində korrupsiya hallarının üzə çıxması idarəçilikdən irəli gəlir. Sistemin özündə korrupsiya elementləri çoxdur. Bu tək fərdlərdən ibarət deyil. Görünür, Putin korrupsiya məsələsini DİN-dən tamamilə alıb, Dövlət Təhlükəsizlik Nazirliyinə, yəni xüsusi xidmət orqanına vermək istəyir. Bir növ rüşvətin bir əldə cəmləşməsi, təmərküzləşməsi prosesi gedir".

**Sabiq MTN-çi proseslərin Azərbaycana sıçraya biləcəyini də vurğuladı:** "Əvvəldə bu proseslərin digər ölkələrə də sıçrama ehtimallarından danışanda daha çox öz ölkəmizi nəzərdə tuturdum. Təəssüf ki, bu ola bilər. İdarəetmə sistemində oxşar məqamlar həddindən artıq çox olduğuna görə, hesab edirəm ki, Azərbaycanda da xüsusi xidmət orqanının iş mexanizmini daha da artırsınlar. Amma inanmıram ki, bizdə kəşfiyyat və əks-kəşfiyyat xidmətlərini birləşdirsinlər. Çünki hazırda kəşfiyyat müstəqil olandan sonra daha yaxşı işləyir. Təhlükəsizlik sistemi istənilən ölkənin ən vacib strukturudur. İnformasiyanı qabaqcadan əldə etmək hadisələri önləmək deməkdir. Amerikanı güclü edən bu sistemdir. Hansı ölkədə olmasından asılı olmayaraq, bu sistemdə peşəkar insanlar olmalıdır. Eldar Mahmudov bizə bundan sonra örnək olmalıdır. Belə şəxsləri bu vəzifələrə təyin edəndə, sistemdə yaranan problemləri illərlə düzəltmək mümkün olmur. Hər bir dövlətin xüsusi xidmət orqanı onun bel sütunu sayılır".

❑ **Cavanşir ABBASLI**

# İvanın "isgəndərnamə"si...



**Hüseynbala SƏLİMOV**

**Əslində bəzi şeylər bizə ona görə təəccüblü görünür ki, özümüzü təəccüblənmiş kimi göstəririk. Bu, bəlkə də bizim özümüzün nümayiş və təzahür etdirdiyimiz ən böyük qeyri-səmimilikdir ki, onu heç vaxt etiraf etmirik.**

Ona görə etiraf etmirik ki, belə etiraflar bizdən təsəvvürlərimizi və ya hətta, ola bilsin, azacıq həyatımızı da dəyişməyi tələb edir. Biz isə bunu istəmirik, çünki yalanla yaşamaq daha rahatdır - bu sahədə ən azı 70 illik təcrübəmiz var...

Qərəz, oxuyanda ki, Ermənistanda paradda Rusiya raketləri peyda olub, ağlıma ilk gələnlər bunlar oldu. Əvvəl mən də özümü təəccüblənmiş kimi göstərmək istədim, amma həyatda ən bacarmadığım iş aktyorluq və yaxud da qeyri-səmimilikdir...

Ona görə də heç buna cəhd də etmədim və tövrümü pozmadım, bir daha düşündüm ki, Rusiya silahlarını Ermənistanda nümayiş etdirməyib, harada nümayiş etdirəcək ki?...

Yox, sizi Ermənistan-Rusiya əlaqələrinin incəlikləri haqqında dürlü "fikir"lərlə də yormayacam. Bilirsiniz, böyük siyasət böyük əsəb sakitliyi tələb edir. Bəzən siyasətdə böyüklərin təmkinini müşahidə etməkdən maraqlı şey olmur.

Bir də görürsən, təcrübəsizlər deyirlər ki, Rusiya necə edirsə, biz də elə edək... Mən məsələni bu qədər qəlizləşdirməzdim. Amma münasibətləri bir azacıq nizamlamaq da olar. Demirik ki, Rusiyaya qarşı demarş etmək lazımdır. Hərçənd ki, qonşuluqdakı Gürcüstan təxminən elə belə də etdi. Dərhal soruşacaqsınız ki, o, nəyə nail oldu ki, biz də durub onun etdiyi kimi edək?

Haqlı sualdır. Deyirlər, Rusiya ilə ixtilafdan sonra Gürcüstan Abxaziyanı və Cənubi Osetiyanı itirdi. Amma gəl, mən də soruşmaq istərdim: Məgər o vaxta qədər bu bölgələr Gürcüstanın nəzarətində idi ki?..

Bu gün Gürcüstan nə qazanıbdır? Bu ölkədə məqsəd aydınlığı var. Şəxsən mənim üçün bu, çox mühüm məqamdır və mən illüziyaları heç sevmirəm. Amma cəmiyyətimiz bunu sevir...

Fəqət, sual yaranır. Rusiya ilə düşmən olan Gürcüstandan fərqli olaraq bu ölkə ilə dostuq edən Azərbaycan nəyə nail olub? "Dostumuz" Rusiya Qarabağı bizə qaytarırmı? Və yaxud da nə vaxtsa qaytaracaqmı?..

Bizim hakimiyyətə gəldikdə, onlar nə etdiklərini bilirlər. Əslində heç bir illüziya-filan da qurmurlar. Hakimiyyətimizə Rusiya özəl siyasi maraqları üçün lazımdır, çünki Azərbaycan avtoritarizminin əsas dayaqlarından biri məhz bu ölkədir. Bundan artıq bu məsələni çox da xırdalamayacam. Onsuz da hər şey aydındır. Çox şükür ki, hakimiyyətimiz bizimlə açıq oyun aparır, siyasi məqsədlərini qətiyyən gizlətmir və addım-addım ona doğru gedir. Sadəcə, özümüzü elə aparırıq ki, guya nədənsə xəbərsizik...

Amma burada da bir sual verərdim. Gəlin, açıq və səmimi etiraf edək. Görək, neçə faizimiz bir həftədən sonra keçiriləcək referendumda irəli sürülən düzəlişlərlə maraqlanıb? Təbii ki, burda susuruq. Ən yaxşı halda "Əşi, maraqlanıb nə edəcəyik? Guya, bizi eşidən var?" - deyirik...

Nə demək olar? Həm haqlıyıq, həm də haqsız! Nədə haqlı, nədə haqsız olduğumuzu isə özünüz mənsiz də bilirsiniz...

Qayıdaq Rusiyaya və onun öz insanlarından da çox sevdiyi raketlərinə. Üstündən üç ay da keçməyib. "Putin-Lavrov planı" deyib aləmə çar çəkmişdilər. Nə oldu? Bəlkə adı dəyişib "İsgəndər planı" oldu? Məsələ bundadır ki, burada hakimiyyətimiz bizimlə həqiqətən də oyun oynayır. Qarabağ danışıqlarının detallarını heç vaxt açıqlamırlar, bunu nəinki adi bəndələrdən, hətta bizim şanlı parlamentarilərdən də gizli saxlayırlar. Səbəbini də soruşanda qayıdırlar ki, bu, diplomatiyadır, hələ danışıqlar gedir və s...

Amma yenə də sual yaranır. Bəs Ermənistanda diplomatiya yoxdur? İş o yerə çatıb ki, Qarabağla bağlı proseslərin təfərrüatlarını ermənilərin çıxış və bəyanatlarından öyrənirik...

Qarabağ danışıqları ətrafında hay-küy qopanda deyirdik ki, balam, bir əməlli-başlı deyin, görək, Rusiya rayonların qaytarılmasının müqabilində nə istəyir? İsrarla deyirdik ki, Rusiya siyasi filantropiya ilə məşğul olmaz!

İndi haqlı çıxmış adam kimi danışmaq istəmirik. Amma rusların deməsi ki, "İstəmirik ki, hansısa tərəf qalib, digəri məğlub olsun!", bizi narahat edir. Təkrar-təkrar düşünürük ki, əcəba, bu mümkünmü? Hər iki tərəfin tələbi bəllidir. Burada simmetriya saxlamaq mümkündürmü? İnsanın indiyədək tapdığı ədalət instansiyası məhkəmələrdi, amma məhkəmədə də qalib-məğlub olur...

Nə etməli? Heç nə! Gəlin, özümüzü təəccüblənmiş kimi göstərək. Hətta gözlərimizi bir az da çox bərəldək. Ona görə ki, bu cür daha rahatdır...

**Azərbaycan Milli Kulinariya Mərkəzinin (AMKM) baş direktoru Tahir Əmiraslanov "Yeni Müsavat" qəzetinə müsahibəsində Azərbaycan kulinariyasının problemlərindən, mətbəximizdəki zərərli qidalardan və insanları ölümə yaxınlaşdıran istehsal sirlərindən danışıb. Müsahibəni təqdim edirik.**



# "Yaponiyada insan peyinindən ət hazırlanır, kolbasaya vurulur"

## Tahir Əmiraslanov: "Azərbaycanda pomidor-yumurtanı düzgün bişirən 3-4 nəfər aşpaz tapın gətirin"

*-Tahir müəllim, kulinariya mərkəzini nə vaxt, necə yaratdınız?*

- Biz bu mərkəzi yaradanda Sovet İttifaqında heç kimin ağlına gəlmirdi ki, kulinariya mərkəzi ola bilər. Mən SSRİ Kulinariya Assosiasiyasını yaradanlardan biri idim, orada təbliğat şöbəsinin rəisi idim. Sosialist ölkələri arasında birinci Azərbaycanda belə bir mərkəz yarandı. Biz 1991-ci ildə bunu yaratdıq, ancaq bu haqda hökuməti maraqlandırmaq, mərkəzi yaratmağa razı salmaq üçün 1985-ci ildən 1991-ci ilə qədər vuruşduq, yazdıq, pozduq. Göstərdik, mərkəzin vacibliyini sübut elədik. Sonra ermənilərin bizim mətbəxi oğurlaması haqqında ictimai şüur artdı, bununla bağlı ictimai rəyin partlayışı zamanı gələndə mərkəzi yaratmağa nail olduq. 1992-ci ildə biz Dünya Kulinariya Təşkilatının üzvü olduq. Müqayisə üçün onu deyim ki, bu təşkilatın üzvü olmaq üçün Maltaya 8 il, Yaponiyaya 10 il, Türkiyəyə 13 il vaxt lazım olub. 1994-cü ildə biz Rusiyanı üzv elədik. Türkiyəyə, Serbiyaya, Maltaya bu təşkilata üzv olmaqda kömək elədik. Bizim mərkəz 1991-ci ildə yaransa da, 1997-ci ilə qədər işçilərin maaşını cibimdən verirdim, 3-4 işçini zorla saxlayırdım. Halbuki 1993-cü ildə ölkəyə qızıl medallar gətirmişdik. 1994-cü ildə mərhum prezident Heydər Əliyev Dünya Kulinariya Konqresinə əməkdaşlıq üçün məktub göndərdi. Artıq bu mərkəzin vacibliyi anlaşıldı. Yalnız 1997-ci ildə büdcədən bizə maliyyə ayrıldı.

*- Tahir müəllim, bu il Azərbaycan mətbəxinin müxtəlif sahələrinə aid bir neçə festival keçirdiniz, hətta son festivallar kütləviliyi ilə seçildi, nazirlər də maraq göstərdi. Buna necə nail oldunuz?*

- Festivalların keçirilməsi zamanı da biz bu mərhələlərdən keçdik, özümüzü təsdiqlədik. Məsələn, Qəbələdə keçirdiyimiz mürəbbə festivalı sayca dördüncü idi. Yalnız bu festivala mədəniyyət naziri zaman tapıb gələ bildi. Ölkədə hər gün onlarla mədəniyyət tədbiri keçirilir, vaxt məhduddur, bu halda nazirin oraya gəlməsi uzun müddət öncədən planlaşdırılmalı idi. İlk festivalların uğur qazanıb qazanmayacağı bəlli deyildi, ancaq üç festivaldan sonra gördülər ki, artıq bu alınır, hətta uzaq yerlərdən turistlər gəlirlər, bundan sonra mürəbbə festivalına 3 nazir qatıldı. Bizim hörmətli deputatımız da gəldi. Şəkidə etdiyimiz festivala da mədəniyyət nazirinin birinci müavini gəldi.

*- Ölkənin qida sektoru ilə bağlı problemlərdən biri də odur ki, qida zəhərlənmələri artmaqdadır. Yayda bəzi mövsüm meyvələrindən, qışda isə konservləşdirilmiş məhsullardan insanlar zəhərlənir. Bunun qarşısını necə almaq olar?*



**"Restoran biznesində çalışanların 90 faizi heç bir təhsil görməmiş adamlardır"**

- Əvvəllər də insanlar zəhərlənib ölürdülər, ancaq informasiya bu qədər yayılmırdı. Yəni bu, həmişə olub. Restorandakı qidalardan zəhərlənmələr və ölüm hadisələrinin artacağını mən hələ 4-5 il öncə, dəfələrlə demişəm. Bu, çox təbii bir prosesdir və çox böyük sürətlə artır. Birincisi, indiki dövrdə torpaq, hava, su daha zəhərlidir. Ona görə də ekoloji baxımdan düzgün istehsal edən müəssisələrin məhsullarına daha çox etibar etmək lazımdır. Azərbaycanda konservləşdirilmiş məhsullar istehsal edən şirkətlər var və il boyu bu məhsulları marketlərdən almaq mümkündür. Mən məsləhət görərdim ki, özlərinə güvənməyənlər onlardan alsınlar. Heç bir şirkət məhsulunu zay eləmək istəməz. O şeyi ki, duz və ya şəkərlə konservləşdirmək mümkündür, ona əlavə qatqılar qatmazlar, çünki bu onlara baha başa gəlir. Həm də orada adi insanlar yox, peşəkarlar işləyir. Bu, həm də iqtisadi baxımdan sərf eləmir. Biz gilasın kilosunu 4 manata alırıq, şəkər tozuna da 1 manat veririk, onun zəhməti və sair. Zavod gilası tonla alır 20 qəpikdən, ona ucuz başa gəlir. Əgər o daha keyfiyyətlidirsə, onu almaq lazımdır. Mən həmişə yaxınlarıma da deyirəm ki, qazlı sular içməyin, əvəzinə kompot için.

*- Restoranların fəaliyyətini, orada təqdim olunan yeməkləri necə qiymətləndirirsiniz?*

- Restoranlarda da zəhərlənmə halları çox olur. Çünki ölkədə restoran biznesi, ictimai iaşə sektoru ilə bağlı heç bir elmi tədqiqat institutu fəaliyyət göstərmir. Azərbaycanda bu sahə üçün heç bir kadr hazırlanmır. Dəmirçi və ya bərbər hazırlayan peşə məktəblərinin nəzdində ildə 50-60 aşpaz hazırlayan qruplar var. Mən bununla bağlı Təhsil Nazirliyinə, Mədəniyyət Nazirliyinə də müraciət etdim ki, zəhmət olmasa, bu uşaqların dərs keçdiyi kitabları toplayıb yandırın. Birincisi, milli mətbəxi təhrif edirlər, ikincisi, bu kitablar nəinki peşəkar aşpaz, evdar qadın üçün də yaramır. Azərbaycanda pomidor-yumurtanı düzgün bişirən 3-4 nəfər aşpaz tapın, mən onlara kömək edib ölkənin ən məşhur aşpazları edəcəyəm. Azərbaycanda peşə məktəblərinə dərslərini oxumayan, əldə-ayaqda qalan şagirdlər gəlirlər. Bu savadsız uşaqlardan da aşpaz çıxmaz. Həmin uşaq peşə məktəbindən çıxıb restorana gələndə əlbəttə ki, həmin yeməkdən insan zəhərlənəcək. 1990-cı ildən bəri bir peşə məktəbinin aşpazlıq kursuna bir kiloqram ərzaq verilməyib ki, həmin uşaqlar praktika keçsinlər. Peşə məktəblərində demək olar ki, mətbəx avadanlıqları yoxdur, uşaqlar nədə bişirsinlər. Mən təklif etdim ki, bunların hamısını mənə verin, məktəblər yaradım və 7 ildən sonra mən sizə dövlətdən pul almayan aşpaz məktəbləri təqdim edim. Ancaq olmadı. Kadr olmayan yerdə qida sektorunun keyfiyyətindən danışmağa dəyməz.

**"Kursda tibb bacısı və aşpaz hazırlamaq dünyada heç kimin ağlına gəlməyib, bir Azərbaycanda var"**

İndi necə edirlər, şagirdi göndərirlər hansısa restorandakı Əli ustanın yanına, o aşpaz 30 dənə yemək bilir, şagird o yeməkləri pis-yaxşı öyrənib gedir o biri restorana, eyni şeyi bişirir. Növbəti praktikant həmin bu usta Vəlinin yanına gəlir, o da eyni yeməkləri öyrənir, bir az da təhrif edir, gedir başqa bir restoranda işləməyə. Ona görə də bütün restoranlar eyni yeməkləri təklif edir, bütün menyular da bir-birinin üzünə tüpürür, çünki tədris yoxdur. Praktikada öyrənən aşpaz ola bilməz, yemək bişirən ola bilər. Dünyanın hər bir yerində, o cümlədən Azərbaycan qanunvericiliyində də qeyd olunur ki, baza təhsili olmayan adamlara aşpaz demək olmaz, onlar restoran biznesində işləyə bilməzlər. Azərbaycan restoran biznesində çalışanların 90 faizi heç bir təhsil görməmiş adamlardır. Kursda tibb bacısı və aşpaz hazırlamaq dünyada heç kimin ağlına gəlməyib, bircə Azərbaycanda var. Kursda uzaq başı ixtisas artırmaq olar, hansısa avadanlıqdan istifadəni öyrətmək olar.

*- Kolbasalara vurulan, restoranlarda verilən ətlərin keyfiyyəti ilə bağlı da müxtəlif məlumatlar yayılır. Xaricdən gətirilən mənşəyi məlum olmayan ətlər var, ölmüş heyvan ətləri var və sair.*

- Bir kiloqram lüləkabab neçəyədir? Deyək ki, 15 manat. Ancaq bir kiloqram lüləkabab hazırlamaq üçün 1,7 kiloqram sümüklü ət lazımdır, onun da kiloqramı 8-9 manatdır. Üzərinə kömür pulu, su pulu, aşpazın əmək haqqı, yerpulu, vergi və sahibkarın götürəcəyi gəliri də əlavə edin. Təxminən 25 manat edir. Deməli, artıq şübhələnmək üçün əsas var. Çünki heç kim ziyana işləməz. Mən küçədə satılan ətdən də şübhələnirəm, gözümün qabağında heyvanı kəssə də, yoldan keçən maşınların tüstüsü, ağır metallar ətin üzərinə oturur. Mən hələ başqa tərəflərindən yox, sırf sağlam ətin saxlanma şəraitindən danışıram.

*- Tahir müəllim, kolbasa yeyirsinizmi?*

- Mənim evimə, ümumiyyətlə, sosiska-kolbasa girmir. Çünki uşaq bir dəfə görür öyrəşir və məcbur olursan ki, hər gün alasan. Kolbasa qədimdə ona görə hazırlanırdı ki, əti uzun müddət saxlamaq mümkün olmurdu, soyuducu yox idi. İndi hər gün təzə ət var. Ət qurudulub saxlanılırsa, onun tərkibindəki mineralların, vitaminlərin 90 faizi ölür. 100 qram təzə ət yemək, 10 kiloqram kolbasa yeməkdən daha xeyirlidir, hələ kolbasa təmizdirsə... Kolbasanın kiloqramı deyək ki, 6-8 manatadır. Sovet İttifaqında 1980-ci ildə il ərzində 1 milyon ton süni ət istehsal olunurdu və kolbasaya vurulurdu. O da pivə istehsalı zamanı yerdə qalan arpa jımıxından, neftin parafinindən və quş peyinindən alınırdı. Bunlara hansısa kimyəvi maddələr vurub ondan ət hazırlayırdılar. Bu gün Rusiya ərazisində demək olar ki, ətdən hazırlanmış 1 kilo da kolbasa yoxdur. Yaponiyada ət artıq insan peyinindən alınır və farş kimi də yox, tikə ilə hazırlanır. Təzə ət var ikən mən heç vaxt o kolbasanı alıb nəvələrimə yedizdirmərəm. Kərə yağı adı ilə aldıqlarımız da kərə deyil. Bir kiloqram kərə yağı almaq üçün 24 litr süd lazımdır. Onun üzərinə daşınma xərclərini və sair də gəlsək qiymət neçə olar? Zellandiyadan bir gəmi iki aya gəlir. Sizcə, oradan gələn yağın qiyməti neçəyə olmalı idi? Mağazada kiloqramı 10 manata satılır. Üzərinə gömrük rüsumu, daşınma, vergi və sair də gəlir. Bu dəqiqə mətbəx nano texnologiyaları o qədər inkişaf edib ki, onu hər şeydən hazırlamaq mümkündür.

**"Bu gün Rusiyada demək olar ki, ətdən hazırlanmış 1 kilo da kolbasa yoxdur"**

*- Siz özünüz restoranlarda yemək yeyirsinizmi?*

- Çox nadir hallarda, sadəcə, özümün məsləhətçisi olduğum restoranlarda yemək yeyirəm. Qonağım gələndə də oraya aparıram. Bilirəm ki, o restoranlarda təmiz yeməklər verilir. Bir də bizim kollektiv üzvlərimiz olan restoranlar var, onlar standartlara uyğun fəaliyyət göstərirlər.

*- Televiziyalardakı yemək proqramlarına baxırsınızmı? Münasibətiniz necədir?*

- Biz Milli Kulinariya Mərkəzi olaraq, Azərbaycan telekanallarındakı iki verilişə tanınma sertifikatı vermişik. Onlardan biri Aynur Talıbovanın verilişi idi, kəndlərə gedib milli mətbəximizi çəkirdi, mən də ona kömək edirdim, icra hakimiyyətlərinə zəng edib tapşırırdım. Burada yeməkləri planlaşdırırdıq. O verilişlərin milli mətbəximizin təbliğ olunmasında böyük əhəmiyyəti var və biz o videoları saytımıza da yerləşdirmişik. İkinci veriliş "Nuş olsun" verilişidir, Xəzər TV-də yayımlanır. O da gəlir burada kitabları bir-bir oxuyur, bütün sualları aydınlaşdırırıq, daha sonra efirə çıxır. Bu sertifikatı da onlara biz vermişik, heç xəbərləri də yox idi. Qalan verilişlərdə aşpazlar ağızlarına gələni danışırlar. "Pors" nə deməkdir, Azərbaycan dilində "pors" sözü var? Bu verilişlər birincisi, Azərbaycan dilində deyil, ikincisi, Azərbaycan mətbəxi deyil, heç xarici mətbəx də deyil. O verilişləri aparanlar heç yerli-dibli aşpaz deyillər, sənədləri yoxdur. Yalnız ustanın ixtiyarı var ki, nə isə öyrətsin, 6-cı dərəcədən sonra şagird öyrətmək olar. Mətbəxdən yararlanmaq istəyən bloggerlər var, onlar, ümumiyyətlə, mətbəxi təhrif edirlər.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRD**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# "Qarşıda bizi güclü silahlı toqquşma gözləyir"

## Hərbi və siyasi ekspertlərdən növbəti savaş xəbərdarlığı; düşmən ölkə paytaxtındakı hərbi parad sülhü təhdid edir; Ağdamda hərbi təlimlər keçirən İrəvan danışıqlara "İskəndər" zərbəsi vurdu...

**Himayədarlarının dəstəyi ilə Azərbaycan ərazilərini 25 ildən artıqdır işğal altında saxlayan oyuncaq Ermənistan dövləti özünün "müstəqilliyinin" ildönümünü hərbi paradla qeyd edib. Sentyabrın 21-də İrəvanın Azadlıq meydanında təşkil olunan paradda bir sıra silahlar, o cümlədən "İskəndər" operativ-taktiki raket kompleksi, "Toçka U" və "Elbrus" (R-17 ballistik raketləri ilə) taktiki raket kompleksləri, həmçinin bəzi hərbi texnika növləri nümayiş etdirilib.**

Şübhə yox ki, hərbi parad əslində Azərbaycana qarşı təhdid məqsədi güdür. Aprel döyüşlərində Qarabağda ciddi itkilər verən və bəzi yüksəklikləri itirən işğalçı ölkə "güclü ordu" nümayişi ilə həm Azərbaycana özünü "arxalı köpək" qiyafəsində göstərmək istəyir, həm də ölkədəki etirazları səngitməyə çalışır. Qeyd edək ki, Rusiyanın Ermənistanda dislokasiya olunan Cənubi Qafqaz hərbi dairəsinin heyəti də hərbi parada qatılıb. Bununla Qarabağ məsələsində vasitəçi olan Rusiya əslində Ermənistanı himayə etdiyini növbəti dəfə nümayiş etdirib.

Düzdür, parad həm texnika, həm də iştirakçıların tərkibi baxımından zəif təsir bağışlayıb. AzVision.az xəbər verir ki, paradda hərbi hissələrdə nizam-intizamın olmaması, elementar keçid qaydalarına riayət edilməməsi açıq-aşkar görünüb. Hətta kursantların və hərbçilərin nizamlı formada keçidi yerinə yetirə bilmədiyi bəlli olub. Paradda erməni keşişlərin iştirakı gözdən yayınmayıb.

Yeri gəlmişkən, tərəflərin Vyana və Sankt-Peterburqdakı razılaşmasını pozan Ermənistan rəhbərliyi iki gün əvvəl Ağdam ərazisində hərbi təlimlər keçirməklə də danışıqları pozmağa yönəlik təxribata əl atdı. Azərbaycan XİN də Ermənistanın bu cür davranışını İrəvanın növbəti ciddi təxribatı adlandırıb.

Azərbaycan da düşmənin təhrikçi hərəkətlərinin qarşısında zəruri addımlar atır. AzərTAc bildirir ki, sentyabrın 21-də Müdafiə Sənayesi Nazirliyi "Şərq" İstehsalat Birliyinin "AZAD Sistemlər" müəssisəsində hazırlanan müasir kəşfiyyat element bazasına və taktiki məhvedici hücum sisteminə malik "Zərbə" pilotsuz uçuş aparatlarının təqdimatı olub. Azərbaycan prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Sentyabrın 27-də isə Azərbaycan paytaxtında müdafiə sənayesi sərgisi keçiriləcək. Məlumata görə, İsrailin hərbi sənaye şirkəti "Aeronautics" LTD sentyabrın 27-də Bakıda başlayacaq ADEX-2016 müdafiə sərgisində ilk dəfə döyüş başlığı daşıyan iki yeni taktiki pilotsuz uçan aparatı təqdim edəcək. Virtualaz.org xəbər verir ki, bunlar "Orbiter 4" taktiki pilotsuz uçan aparatı və "Orbiter 1K" mini pilotsuz aparatdır. Ermənilər aprel döyüşlərində İsrail istehsalı olan silahların şokundan ayılmamış Azərbaycanın yeni silahlara sahiblənməsi təbii ki, düşməni çətin vəziyyətdə qoyacaq.

Azərbaycan paralel olaraq qardaş Türkiyədən də regionun ən dağıdıcı raket sistemi sayılan T-300 qasırğa silahlarını almağa başlayıb. Bu haqda şirkətin rəhbəri Eyup Kaptan deyib ki, Azərbaycanın sifariş verdiyi bir divizyon (4 kompleks) "Kasırğa T-300" sistemi ilin sonunadək çatdırılacaq. Hər kompleksin tərkibinə 4 raket daşıya bilən mobil platforma, komanda-nəzarət mərkəzi, hava hücumundan müdafiə sistemi və radar daxildir. Azərbaycan Rusiyadan iki divizyon (hər diviziyonda 18 sistem) "Smerç" sistemləri alıb. "Qasırğa T-300" sistemləri isə düşmən nəzarəti altında olan ərazilərin dərinliklərində yerləşən hədəflərə, o cümlədən hərbi bazalara, qoşunların cəmləşdiyi yerlərə, nəqliyyat şəbəkələrinə, inzibati və sənaye obyektlərinə zərbələr endirmək üçündür.

Xatırladaq ki, Azərbaycanın İsraildən aldığı "Harop" pilotsuz döyüş sistemləri bu ilin aprelində gedən döyüşlərdə ilk dəfə tətbiq olunub və düşmənin bir sıra hədəflərini yüksək dəqiqliklə məhv edib. Müşahidəçilər hesab edir ki, Azərbaycanın müasir silahlar əldə etdiyi şəraitdə düşmənin öz hərbi arsenalını nümayiş etdirməsi də nəzərdən qaçırılmamalıdır.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Uzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, bədnam qonşularımız hər dəfə özlərini hansısa yeni "kəşfləri" ilə gözə soxmağa çalışır və hərbi terminlə ifadə etsək, "minaya" düşürlər:** "Elə bu dəfə də onların lovğalıqla hərbi paradda İrəvanın mərkəzi meydanına çıxartdıqları operativ-taktiki raket də onları rüsvay etdi. Dünənədək orduda kadr çatışmazlığından gileylənən hayların, birdən-birə bizə son illərin ən müasir silahlarından sayılan "İskəndər"i nümayiş etdirməklə "əzələ nümayiş etdirməyə, sadəcə, blef-cəhd etməyə gücləri çatdı. Əslində hələ paraddan əvvəl məlum oldu ki, bu, onların deyil, tabe olduqları və bütün göstərişlərini canla-başla yerinə yetirdikləri rəsmi Moskvanın növbəti dəfə rus əsgər və zabitləri ilə birlikdə hərbi parad üçün Ermənistanın sərəncamına verdikləri raket kompleksi idi. Nə olur-olsun, əvvələ, ermənilər o ağılın yiyəsi deyillər ki, onların son nəsil operativ taktiki raketləri almaq və idarə etmək qabiliyyətləri, bacarıqları olsun. Bu, sadəcə, aprel uğursuzluğundan sonra möhkəm qorxu və təlaşdan irəli gələn bir addım idi ki, bunu da gördük".

**Ü.Cəfərov bundan sonrakı mərhələdə hərbi toqquşmaları istisna etmir:** "Biz bir daha şahid olduq ki, ATƏT-in Minsk Qrupunun mənasız və heç bir nəticəyə gətirib çıxartmayan fəaliyyəti bundan sonra da eyni qaydada davam edəcək. Məsələnin çözümü Azərbaycan Silahlı Qüvvələrinin gücü və qətiyyəti hesabına, inşallah, başa gəlməlidir və yəqin ki, bu, qaçılmaz olacaq. Biz yalnız gücümüzü və qüvvəmizi bu istiqamətdə cəmləşdirməliyik və bu sahədə həm maddi, həm də mənəvi hazırlıqlarımızı sürətləndirməliyik. Sadə dillə desək, qarşıda bizi güclü silahlı toqquşma gözləyir ki, biz nəhayət ki, öz ərazi bütövlüyümüzü bərpa edək, düşməni layiq olduğu şəkildə cəzalandıraq".

**Türkiyənin Azərbaycanın silah arsenalındakı payı barədə danışan Ü.Cəfərov bildirdi ki, son vaxtlar Azərbaycan qardaş ölkədən ən müasir silah-sursat alıb:** "Bugünlərdə Türkiyədən ən müasir sistemlər almışıq. Söhbət ən müasir, son nəsil artilleriya-raket qoşunlarının arsenalında olan sistemlərdən gedir. "Qasırğa T-300" canlı qüvvə və texnikanı sıradan çıxartmaq üçün ən müasir silah sistemləri sayılır. Azərbaycanın silah arsenalında əvvəlki illərlə müqayisədə keçmiş SSRİ məhsullarının həcmi Türkiyə, İsrail, Cənubi Koreya, Pakistan, Afrika istehsalı olan silahlar hesabına xeyli azalıb. Bu gün faiz nisbəti ilə götürəndə dəfələrlə çox azalma var".



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hələ ki bəzi sualların konkret cavabının olmadığı qənaətindədir:** "İrəvanda nümayiş etdirilən modern "İsgəndər-M" raketləri Rusiyanın hərbi bazasındakı özəl mülkiyyətidir, yoxsa həqiqətən Ermənistana aiddir? Bu sual ətrafında jurnalistlər və ekspertlər günlərdir baş sındırır və bu, səbəbsiz deyil. Çünki bu silah çox dağıdıcı xüsusiyyətlərə malikdir. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, Rusiya bu silahı hər istəyən dövlətə satmır. Varlı Səudiyyə Ərəbistanı bu raketləri almaq üçün Moskvaya müraciət etmişdi, ancaq Rusiya rədd cavabı verdi. Moskva varlı Səudiyyə Ərəbistanının əvəzinə, həmin raketləri Ermənistana göndərdi. Yaxud rəsmi Bakı müraciət etsə, Rusiya bu raketləri Azərbaycana da satarmı? Bu sual da açıq qalır. Sözdə Kreml Azərbaycanı "strateji tərəfdaş" adlandırır və bölgədə hərbi balansın pozulmasını istəmədiyini bildirir. Ancaq "İsgəndər-M" raketlərinin ancaq bir dövlətə məxsus olması balansı pozur. Deməli, o biri dövlətdə də bu raketlərdən olmalıdır".

**Ekspertin fikrincə, Rusiya rəsmi Bakının da raketləri əldə etmə müraciətinə rədd cavabı verərsə, deməli, o halda Kremlin "hərbi balans pozulmamalıdır" kimi dərdinin olmadığını demək olar:** "Fikrimcə, raketlərlə bağlı qeyri-müəyyənlik varkən Azərbaycan XİN işə qarışmalıdır. Əlbəttə, söhbət Rusiyaya nota verilməsindən getmir. Biz Rusiyanın silahı kimə satması və hədiyyə verməsi işinə qarışa bilmərik, bu, onun daxili işidir. Ancaq XİN heç olmasa öz kanalları ilə aydınlaşdırmalı və bu haqda Azərbaycan ictimaiyyətinə məlumat verməlidir ki, İrəvanda nümayiş etdirilən "İsgəndər-M" raketləri kimə məxsusdur, Rusiyaya, yoxsa Ermənistana? Məsələ burasındadır ki, Ermənistan hakimiyyətinin qəsdən həmin şəkilləri saytlara vasitəsilə yayması bu raketlərlə Azərbaycan cəmiyyətində qorxu yaratmağa hesablanıb. Ona görə də məsələyə aydınlıq gətirməlidir. Bunun aydınlaşdırılmasının yolu isə Azərbaycan XİN-nin rusiyalı həmkarlarına müraciət etməsidir. Qoy Rusiya XİN və ya Müdafiə Nazirliyi açıqlama verib desin ki, həmin "İskəndər" raketləri onlarındır, yoxsa ermənilərin?"

**E.Şahinoğlu xatırlatdı ki, hələlik Rusiya rəsmilərindən və hərbçilərindən İrəvanda nümayiş etdirilən raketlərlə bağlı açıqlama gəlməyib:** "Raketlər Rusiyaya məxsus olsaydı, Ermənistan hakimiyyətinin həmin raketləri özününkü kimi nümayiş etdirməsi Moskva tərəfindən təkzib olunmalı idi. Təkzib yoxdursa və ya susqunluq nümayiş etdirilirsə, deməli, bu raketlərin Ermənistana məxsusluğu və ya Ermənistanın maraqları üçün istifadə oluna biləcəyi faktı ortaya qoyulmuş olur. Bu isə o deməkdir ki, həmin silahlar çox rahatlıqla Dağlıq Qarabağda və digər işğal altındakı ərazilərimizdə peyda ola bilər. Bu faktor Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə xidmət etmir. Üstəgəl, Ermənistan hakimiyyəti yenə köhnə təxribatına əl atıb, işğal altındakı Ağdam və digər ərazilərdə hərbi təlimlərə başlayıb. Demək, aprel döyüşləri və öldürülən yüzlərlə erməni rəsmi İrəvana heç nəyi anlatmadı. Ermənistan əvvəlki tək Rusiyaya arxayındır".

**Politoloq Arzu Nağıyev hesab edir ki, ermənilərin Rusiyadan aldıqları və ya həmin silahların "özlərininki" kimi nümayişi ilk növbədə Rusiya ilə olan münasibəti göstərməkdən ibarətdir:** "Digər tərəfdən, Rusiya Ermənistana bu silahları gətirməklə özünün NATO ilə olan sərhədini möhkəmləndirir. Fakt budur ki, Rusiya Azərbaycana da yetərincə silah satır. Son vaxtlar Rusiyadan T-72 tankları, BTR -80 A, Ka-32 və Mİ-17B-5 helikopterləri alınıb. Yəni Azərbaycan da öz arsenalını yeniləşdirməkdə davam edir və əlavə müqavilələr, o cümlədən "Kornet- E" raket əleyhinə kompleks və dörd ədəd Ka-32 PS helikopteri ilə bağlı da müqavilələr imzalanıb". **Düşmən tərəfdən gələn təhlükələri real qiymətləndirməyi vacib sayan A.Nağıyev qeyd etdi ki, Azərbaycan heç də münaqişənin həlli barədə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin deklorativ bəyanatlarına ümid edərək düşünmür:** "Biz regionda baş verə biləcək hər hansı proseslərə hazır olmalıyıq və bu istiqamətdə də işimizi qururuq. Bundan başqa, bizim İsrail, Cənubi Afrika Respublikası, Ukrayna və Türkiyə ilə də müvafiq müqavilələrimiz var. Bu, heç də Rusiya-Ermənistan hərbi əməkdaşlığına cavab addımı deyil, Azərbaycanın hərbi doktrinasına uyğun şəkildə həyata keçirilir. Türkiyəyə gəldikdə isə "Roketsan" kompaniyası ilə Azərbaycanın müqaviləsi var və müqaviləyə əsasən Azərbaycana T-300 "Qasırğa" ("Hurricane"), reaktiv raket sisteminin alınması nəzərdə tutulub. Müqavilənin ümumi məbləği təxminən 244 milyon dollardır. Ümumiyyətlə, Türkiyə hazırda dünyada silah satan dövlətlər arasında 17-cidir və ixraca görə onun alıcıları arasında Səudiyyə Ərəbistanından sonra Azərbaycan ikincidir".

Azərbaycan da situasiyanı düzgün təhlil edir və yaxşı başa düşür ki, bölgəni "İskəndər"lə təhdid edən Ermənistan elə bugünlərdə Ağdamda hərbi təlimlər keçirməklə danışıqlar yolu ilə əraziləri azad etmək niyyətində deyil. Odur ki, aprel savaşının daha dəhşətli formada təkrarı real görünür.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 208 (6529) 22 sentyabr 2016

# Vaxtımız az gedir, bəs pulumuz?..

## Online alış-veriş barədə bilmədiklərimiz

**Son illərin əsas trendi heç şübhəsiz ki, onlayn alış-verişdir. Bank kartı olan istənilən şəxs internetdə gördüyü malları əlavə vaxt və enerji sərf etmədən satın alır. Lakin alış-veriş saytlarında "serfinq" edərək satıcı kaprizi, basabas diskomfortu olmadan edə biləcək bu alış-veriş növü heç də hər zaman müsbət nəticə vermir.**

### Online alış-verişin düsturu

Budəfəki yazımızda online alış-veriş barədə bilmədiyimiz bəzi detalları işıqlandıracağıq. Öncə ondan başlayaq ki, internetlə alış-veriş etmək insanlara ilk növbədə vaxt qazandırır. Bir məhsulu internet vasitasilə 7 gün, 24 saat müddət ərzində araşdırıb incələyə bilərsiniz. Digər mallar ilə dərhal qarşılaşdırma, müqayisə aparma imkanları da öz yerində. Sözügedən məhsulun bütün marka və növlərini eyni anda görə bilərsiniz. E-ticarət sayəsində mağaza-mağaza gəzib yorulmur, nəqliyyat, parkinq xərci ödəmirik, həm də saatlarla zamanımız bizə qalır.

Daha bir məqam. Virtual dünyadakı alış-veriş klassik mağazada etdiyimiz alış-verişdən daha ucuzdur. Virtual iş dünyasındakı mağaza kirayəsi, işçi məvacibi, elektrik və sair xərclər olmadığından, bu, malın qiymətinə də avtomatik təsir edir. Bundan başqa, virtual dünyada ediləcək qısa bir gəzinti ilə satın alınacaq məhsulla bağlı mütəxəssis və istehlakçı rəyləri ilə də tanış olmaq mümkündür. Bundan başqa, bir çox mağaza e-posta servisi ilə sifarişin hansı mərhələdə olduğu haqqında *(karqoya nə zaman verildi, nə qədər müddətdə təslimat olacaq)* müştərsini də məlumatlandırmaqdadır. Online satışla məşğul olan bir çox mağaza müştərilərinin ödəmə məlumatlarını qorumaq üçün bir çox təhlükəsizlik qaydalarına (SLL, SET) riayət edir.

Burada ən vacib məsələ təhlükəsizlikdir. Bu məsələdə çox diqqətli olmaq lazımdır. "İnternetdə kredit kartı məlumatlarını vermək güvənlidirmi" sualının cavabına gəlincə, dünyada 100 faiz təhlükəsiz sistem yoxdur. Hər sistem ələ keçirilə bilər. Amma gerçək həyatda kredit kartı məlumatlarınız daha asanlıqla ələ keçirilə bilir. Bir neçə bəsit önləyici tədbirlər alanda görmək olur ki, virtual dünyadakı alış-verişdə kredit kartından istifadə etmək daha az risk daşıyır, nəinki restoran və ya dükanda. Alış-veriş etdiyimiz yerlərdə, restoranlarda, yanacaqdoldurma məntəqələrində və sair kartımızı kimlərəsə təslim edə bilirik. Halbuki təhlükəsiz internet saytlarında bu risk daha aşağıdır. Qısacası internetdən alış-veriş edərkən əlavə bir narahatçılıq yersizdir.




Mütəxəssislər məsləhət görür ki, daha öncə internet üzərindən alış-veriş etməmisizsə, kitab və CD kimi nisbətən ucuz məhsullar sifariş edərək başlayın. Bundan başqa, hər kəs bir veb səhifəsi aça bilər. Sadəcə, təhlükəsiz, bilinən veb xaricində ismi tanınan marka quruluşlarının veb səhifəsindən alış-veriş edin. Alış-veriş etdiyiniz saytlardakı bütün məlumatları yaxşıca oxuyun. Xüsusən də kredit kartınızdan nə qədər pul çəkiləcəyi, məhsulun neçə gün içində, hansı formada göndəriləcəyi, daşınma xərcinin də sizə aid olub-olmadığını diqqətlə oxuyun.

Amerikada aparılan bir araşdırmaya görə, istehlakçıların 33 faizi məhsul seçib, sonra mağazaya gedir. 19 faiz isə mağazaya gedib, sonra online məhsulu satın alır. Bu da onun sübutudur ki, istehlakçı artıq internetdə araşdırma və incələmə etmədən alış-veriş etmir. Bu isə onu göstərir ki, yaxın gələcəkdə biz istehlakçılar olaraq mağaza-mağaza gəzib, məhsul satın almayacağıq. Hər şey kompüterin bir düyməsinin əmrində olacaq. Hətta insanların market alış-verişini də onlayn qaydada həyata keçirəcəyi yaxın gələcəkdə baş verə bilər.

### Ziyanları... say, say bitmir

**Bütün hallarda bu seçimin müsbət və mənfi tərəfləri var. Öncə onlayn alış-verişin mənfi tərəfləri haqda:**

*1. İnternetdən alacağınız məhsulu gözlə görməyəcəyiniz üçün və əllə yoxlaya bilməyəcəyinə görə, sonuc satıcının insafına və ya insan kimi "keyfiyyət"inə qalıb.*

*2. Əgər çox tanınmamış saytlardan alış-veriş etmisizsə, bu halda aldadılma riskiniz var. Çünki öncə pulu verir, sonra məhsulu əldə edirsiniz.*

*3. Aldığınız məhsulu dəyişdirmək və ya qaytarmaq çox əziyyətli bir iş olacaq. Məsələn, məhsulda qüsur varsa, bunu istehsalçıya sübut etmək üçün o dünyanın əzabını görüb qayıdacaqsız.*

*4. Aldığınız məhsul gələcəkdə xarab olarsa, zəmanət məsələsini həll etmək də sıxıntı yaradacaq.*

*5. Daşınma zamanı məhsulun sıradan çıxma ehtimalı da böyükdür.*

*6. Kompüterinizdə virus olduğu və ya səhifə təhlükəsizliyi olmadığı halda kredit kartı məlumatlarınız başqalarının əlinə keçə bilər.*

*7. Satın aldığınız məhsulun gəlməsi məsafəyə bağlı olaraq 1-5 gün arasında dəyişə bilər.*

*8. Saxta alış-veriş saytlarında aldadılma ehtimallarınız böyükdür.*

### Mağaza-mağaza gəzmirsən, 14 gün içində geri qaytarırsan...

**Amma zərərlərini yazıb, üstünlüklərini yazmamaq insafsızlıq olar. Bu da online alış-verişin faydası:**

*1. İnternetdə satılan məhsullar mağaza qiymətləri ilə müqayisədə daha ucuzdur.*

*2. İnternetdə axtardığımız məhsulun qiymət araşdırması daha asan həyata keçirilir.*

*3. Mağaza-mağaza gəzməyə ehtiyac görmədən məhsul araşdırması etmək mümkündür.*

*4. Məhsulu alanların şərhlərini oxuyub, onun haqqında məlumat sahibi olmaq mümkündür.*

*5. Axtardığınız məhsulu zəhmətsiz və asan yoldan çatmaq mümkündür.*

*6. Kredit kartı, pul köçürmə və ya qapıda ödəmə seçimləri var ki, bu da müştəriyə yüngüllük yaradır.*

*7. Xoşunuza gəlməyən məhsulu 14 gün içərisində şərtsiz geri qaytara bilərsiz.*

Bütün bunlar məsələnin nəzəri tərəfləridir. Amma online alış-veriş edən bəzi xanımlar daha çox internetdə təqdim olunan malla evə göndərilən mal arasında fərq olmasından şikayətlənirlər. Bir çox hallarda isə malın keyfiyyəti qaneedici olmayıb. Belə ki, online alış-veriş saytlarındakı məhsulların fotolarında xüsusi effektlərdən istifadə olunur. Bu, daha çox geyim əşyalarına aiddir. Belə ki, bu zaman onun görüntüsü aldadıcı olur, parlaq və əlvan rəngdə görünən geyim müştəriyə çatdırılanda heç də həmin effektdə olmadığı üzə çıxır.

❑ **Sevinc TELMANQIZI**

---



# "Səriştəli valideynlər proqramı" kitabının təqdimatı oldu

## **Etibar Əliyev:** "Valideynlərin təhsil prosesində rolu indi xeyli fərqlənir"




**Sentyabrın 21-də "XXI Əsr" Təhsil Mərkəzi İctimai Birliyi tərəfindən hazırlanan pedaqoqlar, valideynlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulan "Valideyn səriştəsinin artırılması: Səriştəli valideynlər proqramı" adlı kitabın təqdimatı olub. Tədbiri "XXI əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev açıb.**

E.Əliyev təhsilin insan həyatındakı əvəzedilməz rolundan danışaraq kitabın yazılma məqsədindən danışıb: "24 oktyabr 2013-cü ildə dövlətimizin qarşısında duran yeni strateji vəzifə kimi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" qəbul edilib. Zamanın bizdən tələbi təkcə geri qalmamaq deyil, irəli getmək, qabaqcıl təcrübəyə uyğunlaşmaq, yeni nailiyyətlərə imza atmaqdır. Adətən bu fikirdən sonra deyirlər ki, təhsilsiz həmin uğurlarla addımlamaq mümkündür. Ona görə də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" bizim üzərimizə tarixi vəzifələr qoyur. Bunlar yalnız pedaqoji vəzifələr deyil, xalqımızın gələcəyinin qurulmasıdır. Təhsil artıq tale məsələsidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır".

**Valideynlərin təhsil prosesindəki rolundan danışan E.Əliyev bu rolun pedaqoji və psixoloji praktikanın əvvəlki tələbindən xeyli fərqləndiyini dedi:** "Valideynlərin təhsil prosesində yeni rolu çağdaş tələblərdən biri kimi ortaya çıxır. Bu rol pedaqoji və psixoloji praktikanın əvvəlki tələbindən xeyli fərqlidir. Yaxşı təcrübə yeni uğura yol açır. Valideynlərin təhsil prosesinə hazırlanması, səriştələrə yiyələnməsi təhsil sisteminin yeni vəzifəsinə çevrilir. İndi valideynlərin təhsil prosesində pedaqoqlarla ciddi əməkdaşlıq etməsi, təhsil prosesinin iştirakçısına çevrilməsi və bu işdə bacarıqlara sahib olması məqsədə çevrilib. Nəzərinizə çatdıraq ki, strategiyasında uşaqların davamlı inkişafına yönəlmiş pedaqoji fəaliyyətə dəstək vermək məqsədi ilə valideynlərin sistemli şəkildə pedaqoji-psixoloji maarifləndirilməsi üçün "Səriştəli valideynlər" proqramının hazırlanması nəzərdə tutulur. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində nəzərdə tutulan "Səriştəli valideynlər" proqramı hələ də mövcud deyil və təşkilatımız bu sahədə öz töhfəsini verməyə cəhd edir".

Qeyd edək ki, kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə hazırlanıb.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 208 (6529) 2 sentyabr 2016

# 1-ci qrup əlilin işi Avropa Məhkəməsinə gedə bilər

## Vəkil: "Rauf Sultanovun həbsi üçün əsas yaratmış saxtakarlıqlar araşdırılmayıb"

**1-ci qrup əlil olan Rauf Sultanov saxta ittihamla həbsə atıldığını iddia edir və bununla razılaşmır. İllərdir ki, o, ölkə daxilində məhkəmələrə iddialar verməklə, barəsindəki məhkəmə hökm və qərarlarını mübahisələndirməklə günahsızlığını sübuta yetirmək üçün mübarizə aparır. Belə görünür ki, Avropa Məhkəməsinə saxtakarlıqlarla zəngin daha bir iş yön alıb.**



Ona qarşı dələduzluq maddəsi ilə irəli sürülən ittihama görə, R.Sultanov Nəsimi sakini Nahidə Manafovanı aldadıb. Buna görə də barəsində Cinayət Məcəlləsinin 178-ci - dələduzluq maddəsi ilə ittiham irəli sürülüb. İbtidai istintaq zamanı N.Manafova R.Sultanovdan şikayətçi olmadığını rəsmi şəkildə bildirib. Bu etiraf müstəntiqi 1-ci qrup əlilə dələduzluq ittihamını irəli sürməyə mane olmayıb. İttiham aktı ilə tanış olan 1-ci qrup əlil özünü ittiham üzrə təqsirli bilmədiyindən ona imza atmayıb. İş məhkəməyə göndərilib. Məhkəmədə ittiham aktı elan olunarkən R.Sultanovun ibtidai istintaq zamanı ittiham aktına imza atdığını hakim onun diqqətinə çatdırıb, bununla da ittihamla razı olması qənaətinin formalaşdığını deyib. R.Sultanov isə bəyan edib ki, o, ittiham aktı ilə razı deyil. Hakim ittiham aktını R.Sultanova təqdim edərək imzasını tanıyıb-tanımadığını xəbər alıb. R.Sultanov isə ittiham aktındakı imzanın ona məxsus olmadığını bildirib. Belə bir halda məhkəmə xəttşünaslıq ekspertizası təyin olunub. Ekspertiza ittiham aktında təqsirləndirilən Rauf Sultanovun adı qarşısındakı imzanın ona məxsus olmaması haqda rəy verib. Hazırda imzanın saxtalaşdırılması faktı ortadadır.

Bütün bu olaylar 2014-cü ildə, R.Sultanov 2 sayli məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkdiyi zaman baş verib.

R.Sultanovun nümayəndəsi Anar Məmmədov bildirib ki, ibtidai istintaq zamani şahidlər dindirilmədən, zərərçəkmişi Rauf Sultanovla üzləsdirilmədən, zəruri istintaq hərəkətləri həyata keçirilmədən ittiham aktı təsdiqlənərək məhkəməyə göndərilib: "Məhkəmə zamanı da ibtidai istintaq zamanı yol verilən və Rauf Sultanovun həbsi üçün əsas yaratmış saxtakarlıqlar araşdırılmayıb. Həmin saxtakarlıqlara əsaslanan hakim iş üzrə 18 sentyabr 2015-ci il tarixdə Rauf Sultanovu 5 il 2 ay müddətinə azadlıqdan məhrum edib".

**Nümayəndə bildirir ki, hökmdən apelyasiya şikayəti verilib və Bakı Apelyasiya Məhkəməsinin hakimi Vüqar Məmmədov hökmü ləğv edib və iş materialları yenidən araşdırılması üçün 1-ci instansiya məhkəməsinə qaytarılıb:** "Hakim Samir Mayılov zəruri araşdırma aparmadan, ibtidai istintaq zamanı yol verilən saxtakarlıqların üzərindən sükutla keçməklə Rauf Sultanovun barəsində 3 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edib".

**Nümayəndə hakimin R.Sultanovun valideynlərinə məhkəmədən kənar saxtakarlıqlara münasibət bildirməyə gücü çatmadığını söylədiyini də diqqətə çatdırıb:** "Hazırda ilkin baxış qərarından şikayət Ali Məhkəmənin hakimi İlham Cəfərovun icraatındadır. 12 oktyabr 2016-cı il tarixdə hakim İlham Cəfərov tərəfindən Bakı Apelyasiya Məhkəməsinin ilkin baxış iclasının qərarından verilmiş şikayətə baxılacaq. Həmin məhkəmənin yekun qərarından R.Sultanovun verdiyi şikayət isə hakim Gülzar Rzayevanın icraatına verilib".

Qeyd edək ki, R.Sultanovu Ali Məhkəmədə vəkil Elçin Sadıqov müdafiə edəcək.

❑ **E.MƏMMƏDƏLİYEV**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclaların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**



## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**


bakcell

## «Applab» yerli developerlərin uğurunu paylaşır: Kvotter mobil sosial şəbəkəsi istifadəyə verildi

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti böyük məmnuniyyətlə "Applab" proqramının iştirakçısı olan "Kvotter" layihəsinin növbəti uğurunu elan edir. Belə ki, "Kvotter" adlı tətbiqin beta versiyası Android platformalı cihazlar üçün istifadəyə verilib.**

**Kvotter - kitablardan sitat paylaşmaq üçün yeni mobil sosial şəbəkədir. Kvotter tətbiqini yükləyərək, hazırda oxuduğunuz kitabdan bəyəndiyiniz sitatın şəklini çəkərək, tətbiq vasitəsilə şəkildəki yazını mətnə çevirərək, yazıçı və kitab adını qeyd etməklə həm yaddaşda saxlaya, həm də dostlarınızla paylaşa bilərsiniz. Bundan əlavə, dostlarınızın nə oxuduqlarını və hansı sitatları paylaşdıqlarını görə və bəyənə bilərsiniz. Kvotter applikasiyasını yükləmək üçün bu keçiddən istifadə etmək olar https://play.google.com/store/apps/details?id=az.kvotter&hl=ru**

**Kvotter layihəsi haqqında əlavə məlumat üçün keçid: https://www.facebook.com/kvotter/videos/1734110983480573/**

**Qeyd edək ki, bir müddət öncə Applab iştirakçılarının "Telefonica Open Future" proqramının startaplar üçün akselerasiya proqramı olan «Wayra UK» şirkətinə təqdim ediyi 11 layihədən 4-ü xüsusi maraqla qarşılanaraq növbəti seçim prosesindən müvəffəqiyyətlə keçib. Kvotter də bu uğurlu layihələr sırasındadır. Son seçim mərhələsindən uğurla keçmiş layihələrə 70.000 ingilis funt sterlinqi məbləğində investisiya yatırılacaq. Bu investisiya bərabər şəkildə xidmətlərin təşkili və inkişaf məqsədlərinə yönəldilir. «Bakcell» və "Wayra UK" şirkətləri arasında əməkdaşlıq əlaqələri 2015-ci ilin sonlarında qurulub. Bu əməkdaşlığın əsas məqsədi Azərbaycandan olan developerlərin startap layihələrini inkişaf etdirmək və onlara beynəlxalq bazara çıxış imkanı yaratmaqdır.**

## Təhsil Nazirliyi əlil uşaqların təhsili ilə bağlı təkliflər hazırlayıb

**Təhsil Nazirliyi "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanuna əlavə və dəyişikliklər edilməsi üçün təkliflər hazırlayıb.**

Təhsil Nazirliyinin De-institutlaşma və uşaqların müdafiəsi idarəsinin xüsusi təhsil şöbəsinin müdiri Anar Xəlilov APA-ya açıqlamasında bildirib ki, bu təkliflər yaxın müddətdə Milli Məclisə göndəriləcək. Onun sözlərinə görə, bu gün mövcud olan "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunda əlillik daha çox tibbi model olaraq qəbul edilir: "Biz onu tibbi modeldən çıxararaq sosial, hüququ baxımdan uşaqların xüsusi təhsilə baxışına uyğun tətbiq etməyə çalışırıq. Xüsusi təhsil haqqında qanunda əlil uşaqların təhsil kateqoriyaları yalnız onların diaqnozları üzərində qurulub. Amma biz bu məsələyə təhsil-pedaqoji aspektdən baxmağa çalışırıq. Bundan əlavə, uşaqların neçə yaşdan təhsilə cəlb olunmaları movcud qanunda qeyd edilməyib. Amma yeni təkliflərdə "Təhsil haqqında" Qanunda qeyd olunduğu kimi, uşaqların 6 yaşdan təhsilə cəlb olunması əksini tapıb".

A. Xəlilov deyib ki, xüsusi təhsil haqqında qanundan başqa, Psixoloji-tibbi-pedaqoji komissiyanın əsasnaməsinin tərkib hissəsinin dəyişdirilməsi barədə də təkliflər hazırlanıb.

## Sərxoş kişi pilləkəndən yıxılıb öldü

**Sərxoş vəziyyətdə evinə getmək istəyən şəxs pilləkəndən yıxılaraq ölüb. "Report"un Daxili İşlər Nazirliyinə istinadən verdiyi məlumata görə, hadisə sentyabrın 19-da Xəzər rayonunun Binə qəsəbəsində qeydə alınıb. Orada yaşayan Vaqif Ağayev sərxoş vəziyyətdə mənzilinə qalxarkən pilləkəndən yıxılıb.**

Kəllə-beyin xəsarəti ilə xəstəxanaya gətirilən V.Ağayev sentyabrın 20-də orada ölüb.

## Əri hərbiçi qadını öldürdü

**Tovuz rayonunda törədilmiş qətl hadisəsi ilə bağlı bəzi məqamlar üzə çıxıb. Lent.az-ın məlumatına görə, Tovuz şəhərində yerləşən avtovağzalda 1992-ci il təvəllüdlü İbrahimova Aytəkin Ədalət qızı həyat yoldaşı, 31 yaşlı Hüseynov Taleh Aydın oğlu tərəfindən ailə münaqişəsi zəminində öldürülüb.**

Bildirilir ki, cütlük arasında bir müddət əvvəl problemlər yaranıb və onlar ayrı yaşamağa başlayıblar. Sentyabrın 20-də axşam saatlarında Aytəkinin işdən çıxmasını gözləyən Taleh ona yaxınlaşaraq mübahisə edib və daha sonra özü ilə gətirdiyi bıçaqla gənc qadının boğazını kəsərək onu öldürüb.

İlkin araşdırma zamanı o da məlum olub ki, A.İbrahimova müddətdən artıq hərbi qulluqçu olub. Cütlüyün 2 azyaşlı övladı qalıb.

Faktla bağlı cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

# Mənim ölkədən çıxışıma niyə "STOP" qoyulub?

## Sərhəddə baş verən "soyuq duş" - qanun və reallıqlar nə deyir...

**Bir neçə gün bundan öncə ictimai fəal Bəxtiyar Hacıyevin ölkədən çıxışına "stop" qoyulması, daha sonra bunun "texniki xəta" olduğu üzə çıxdı. Amma bu problem son illər Azərbaycanda çox aktualdır. Daha çox ictimai fəallar, jurnalistlər... üçün keçərli olan bir qadağadır. İnsanlar hansısa beynəlxalq konfransa, tədbirə qatılmaq üçün vizasını, biletini alır və... sərhədə yaxınlaşanda məlum olur ki, onun adı "qara siyahı"dadır və istəsə belə, ölkədən çıxa bilməz.**




Burada ən problem doğuran məqam heç şübhəsiz ki, həmin vaxta qədər vətəndaşa bu barədə məlumatın verilməməsidir. İnsan bundan xəbərsiz şəkildə sərhədə yaxınlaşır və ölkədən çıxışına qadağa qoyulduğu məlum olanda həm bileti, həm səfər planları "yanır". Maddi itkilərə vətəndaşın xarici ölkədə bron etdiyi hotelin ödənişi də daxildir. Çünki bəzi hotellərdə ödəniş öncədən edilir və ləğvetmə variantı olmur. Bir sözlə, insanlar fərqli səbəblərdən zərərçəkən durumuna düşürlər.

"Yeni Müsavat" xəbər verir ki, rəsmi məlumatlara əsasən, vətəndaşlar ölkədən xaricə çıxışlarına qadağa qoyulub-qoyulmadığını asanlıqla öyrənə bilərlər. Bu, Ədliyyə Nazirliyinin istifadəyə verdiyi yeni elektron xidmət sayəsində mümkündür. Sözügedən xidmət "Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məlumatın verilməsi" adlanır. Bu xidmətdən istifadə edən vətəndaşlar öz şəxsiyyət vəsiqələrinin göstəricilərini daxil etməklə adlarının ölkədən çıxışına qadağa qoyulanlar arasınıda olub-olmadığını öyrənə biləcəklər.

Elektron xidmət pulsuzdur. Xidmətdən istifadə etmək üçün http://85.132.96.196/WebForms/VVA_13.aspx linkinə daxil olmaq lazımdır.

Konstitusiyada vətəndaşların bu hüquqları barədə nə deyilir?

Azərbaycan Konstitusiyasının 28-ci maddəsi sərbəst hərəkət azadlığı çərçivəsində hər kəsə sərbəst surətdə ölkə daxilində sərbəst hərəkət edə bilmək, özünə yaşayış yeri seçə bilmək və Azərbaycan ərazisindən kənara gedə bilmək imkanları verib. Eyni zamanda insanın sərbəst hərəkət azadlığı Azərbaycan Respublikası qanunvericiliyinin tərkib hissəsi olan Avropa Konvensiyasının 2 saylı protokolunun "Hərəkət etmək azadlığı" adlanan 2-ci maddəsində təsbit edilərək üzv dövlətlərin üzərinə həmin azadlığın təmin edilməsi öhdəliyi qoyulub. İstər milli, istərsə də beynəlxalq qanunvericiliyin tələblərinə görə insan və vətəndaşın sərbəst hərəkət etmək azadlığı yalnız konstitusiya və qanunlarla nəzərdə tutulmuş əsaslarla məhdudlaşdırıla bilər, başqa hər hansı bir hal bu cür məhdudlaşdırma üçün əsas ola bilməz.

Sözügedən məqam hazırda qüvvədə olan Miqrasiya Məcəlləsi ilə tənzimlənib. Həmin Məcəllənin tələblərinə (9.3.1-9.3.4-cü maddələr) görə, cinayət prosesi zamanı şəxsin hərəkət azadlığının məhdudlaşdırılması yalnız şübhəli və ya təqsirləndirilən şəxslərin, məhkumların və barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxslərin barəsində tətbiq edilə bilər.

Bununla belə, təcrübədə ibtidai istintaq zamanı istintaq orqanları tərəfindən "şahid" statuslu şəxslərin də ölkədən getmək hüquqlarının məhdudlaşdırılması hallarına yol verilir. Bu zaman ibtidai istintaq orqanları öz mövqelərini həmin sahidlərin gələcəkdə istintaqın gedişi zamanı şübhəli və ya təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb ediləcəyi ilə əsaslandırmağa çalışırlar.

Miqrasiya Məcəlləsində konkret hallar göstərilib və bu hallarda şəxsin Azərbaycanı tərk etməsinə STOP qoyula bilər. Buna məlumat-axtarış sistemi deyilir. Sistemdə şəxs barəsində məlumat yerləşdirilməklə ölkədən çıxışı yasaqlanır. Miqrasiya Məcəlləsinin 9-cu maddəsində vətəndaşların ölkədən getmək və ölkəyə gəlmək hüququ təsbit olunub.

*9.3. Vətəndaşın ölkədən getmək hüququ yalnız aşağıdakı hallarda müvəqqəti məhdudlaşdırıla bilər:*

*9.3.1. Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulduqda və ya barəsində hər hansı qətimkan tədbiri seçildikdə - azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək;*

*9.3.2. məhkum edildikdə -Cinayət Məcəlləsi ilə müəyyən edilmiş əsas cəzasını çəkib qurtaranadək və ya bu Məcəllənin 9.3.4-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, cəzadan azad edilənədək;*

*9.3.3. Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edildikdə - tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ləğv edilənədək;*

*9.3.4. Üzərinə Cinayət Məcəlləsində nəzərdə tutulan vəzifələr qoyulmaqla şərti məhkum edildikdə və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edildikdə - müvafiq olaraq sınaq müddəti və ya cəzanın çəkilməmiş hissəsi başa çatanadək və ya şərti məhkumetmə, yaxud üzərinə qoyulmuş vəzifələr vaxtından əvvəl tamamilə ləğv edilənədək;*

*9.3.5. Müddətli həqiqi hərbi xidmətə çağırıldıqda - müddətli həqiqi hərbi xidmət keçənədək və ya qanuna uyğun olaraq ondan azad edilənədək;*

*9.3.6. Məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları əsasında verilmiş icra sənədinin könüllü icra üçün müəyyən olunmuş vaxtda üzrsüz səbəbdən icra edilməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda - məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;*

*9.3.6-1. Vergi ödəyicisi vergi öhdəliyini Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, hesablanmış vergilər üzrə borcları və faizləri, tətbiq edilmiş maliyyə sanksiyalarını dövlət büdcəsinə ödəməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda - məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;*

*9.3.7. Beynəlxalq tibbi sanitariya qaydalarına və ya Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəliş zamanı - profilaktik peyvəndlər edilənədək.*

*9.4. AR Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrdə qulluq edən hərbi qulluqçular (hərbi attaşelər, hərbi nümayəndələr və onların köməkçiləri istisna olmaqla), habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda beynəlxalq hərbi təlimlərə, antiterror, xilasetmə və xidməti zərurətlə bağlı digər tədbir və ya əməliyyatlara cəlb olunan müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçular müvafiq icra hakimiyyəti orqanlarının rəsmiləşdirilmiş icazəsi olduqda Azərbaycandan gedə bilərlər.*

*9.5. Dövlət sirri ilə işləməyə buraxılmış şəxslərin tanış olmağa buraxıldığı məlumatın məxfilik müddəti bitənədək, lakin 5 ildən çox olmamaq şərti ilə, xarici ölkəyə daimi yaşamağa getmək hüququ müvəqqəti məhdudlaşdırıla bilər.*

*9.6. Ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan vətəndaşlar barədə məlumatlar "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahılarına daxil edilməli və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusu dəyişdirilməlidir.*

*9.7. Hər hansı bir ölkədə fövqəladə vəziyyət və ya insan həyatı, sağlamlığı və azadlığı üçün təhlükə yaranarsa, müvafiq icra hakimiyyəti orqanı Azərbaycan əhalisini dərhal xəbərdar etməklə, vətəndaşlara həmin ölkəyə getməkdən müvəqqəti çəkinməyi tövsiyə edir.*

Siyasi və cinayət xarakterli məqamlarla məsələ aydındır. Bəs banklara kredit borcu olanların ölkədən çıxışına qadağa qoyula bilər?

Əgər problemli kredit sahibi müəyyən müddət ərzində banka borcunu ödəməyibsə, həmin şəxs həm bank, həm də hüquq-mühafizə orqanı tərəfindən axtarılır. Banka borcunu ödəməyən şəxs ölkədən çıxmaq istəyərsə, hüquq-mühafizə orqanlarının köməyi ilə məsuliyyətə cəlb olunur. Belə ki, bankın nümayəndəsi kredit borcunu ödəməyən şəxslə əlaqə saxlayır, əgər həmin şəxs axtarışa məhəl qoymursa, bu zaman məhkəməyə verilir.

Problemli kredit sahibi barəsində məhkəmə qərar çıxarır. Bank işçisi problemli kredit sahibini tapa bilməyəndə bu iş məhkəmə icraçısının üzərinə düşür. Bu zaman həmin şəxsin ölkəyə giriş-çıxışına nəzarət olunur. Dövlət Sərhəd Xidmətinin əməkdaşları problemli kredit sahibinin ölkəyə nə vaxt daxil olduğu və ya ölkəni tərk etdiyi barədə məhkəmə icraçısına məlumat verir. Təbii ki, məhkəmənin qərarına əsasən həmin şəxsin sərhəddən buraxılmasına icazə verilmir.

❑ **Sevinc TELMANQIZI**

# Vergilər Nazirliyinin səlahiyyətləri artırılır

## Vergi borcuna görə ölkədən çıxışına yasaq qoyulan şəxslər borcu ödədikdən dərhal sonra nazirlik yasağı aradan qaldıra biləcək



**Vergilər Nazirliyinə daha bir səlahiyyət verilir. "APA-Economics" xəbər verir ki, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə əsasən vergi orqanları vergi ödəyicisi olan fiziki və hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqdan sonra dərhal həmin məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edə bilər.**

Bununla bağlı Vergi Məcəlləsinin 24.0.2-1-ci maddəsinə dəyişiklik edilməsi tövsiyə edilib.

Xatırladaq ki, indiyədək vergi ödəyicisi olan fiziki və hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasına səbəb olmuş əsaslar aradan qalxdıqdan sonra vergi orqanları həmin məhdudlaşdırmanın götürülməsi barədə 2 iş günü ərzində məhkəməyə müraciət etməli idi. Qanuna təklif edilən bu dəyişiklik qəbul olunarsa, vergi orqanları dərhal həmin məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edə biləcək.

Qeyd edək ki, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsi fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyəti şərtlərinin asanlaşdırılması və vergi inzibatçılığının çevikliyinin gücləndirilməsi məqsədilə hazırlanıb.

Xatırladaq ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sentyabrın 19-da keçirilən iclasında "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

YENİ MÜSAVAT

Son səhifə

N 208 (6529) 22 sentyabr 2016

## Pişiyinə ad günü keçirdi, 440 min nəfər tamaşa etdi

Yaponiya sakini Cun Yoşizuki öz pişiyinin ad gününə şam yeməyi hazırlayıb. Bu barədə lenta.ru saytı "Mashable"ə istinadən xəbər verir. Koxaku ləqəbli pişiyini təbrik etmək üçün ona iki cür yemək hazırlayan yapon bunu videoya çəkərək internetdə yerləşdirib.

Videonun sonunda da məlum olub ki, pişik hazır qidaya əl vurmayıb, ancaq sahibinin hazırladığını yeyib. 19 sentyabrda YouTube kanalına yüklənən videoya bir sutka ərzində 440 min dəfə baxıblar.

## İstefasını tortun üstünə yazdı

Londondakı "Stansted" aeroportunda 7 ildir işləyən 31 yaşındakı Kris Holms xəyallarını həyata keçirmək üçün bir ilkə imza atıb. Uzun müddətdir öz tortlarını bişirən Holms istefasını öz hazırladığı böyük tortun üzərinə yazıb. Tortun üstündəki yazı isə belə olub: "Bu gün mənim 31-ci ad günümdür və yenicə ata oldum. Ona görə də çox dəyərli olduğunu anladığım həyatımı özümü və başqalarını xoşbəxt etmək üçün xərcləməyə qərar verdim. İşdən çıxmaq fikrimi açıqlayır, bundan sonrakı vaxtımı ailəmə və tort bişirmə işinə sərf etmək niyyətində olduğumu bildirirəm.

Şirkətə və iş yoldaşlarıma ən xoş niyyətlərimi çatdırıram. Bu tortu bəyənsəniz, saytıma daxil olaraq sifariş verə bilərsiniz".

Holmsun dediyinə görə, müdiri tortu alanda təəccüblənib.

O, işdən çıxmaq üçün 6 aydan bəri çalışdığını deyib.

"Bundan sonra sevdiyim işlə məşğul olacağam", - Holms deyib.

# Çipsi yeyəndə çıxardığı səsə görə sevirlər

Alman alimlər insanların çipsləri böyük zövqlə yeməsinin və hətta doyandan sonra da yeməkdən özlərini saxlaya bilməməsinin səbəbini tapıblar. Erlanqen Universitetinin professoru Tobias Xox bildirib ki, çipsin tərkibində "sehrli inqredent" var və o, çipsini dözülməz dərəcədə dadlı edir.



Xoxun sözlərinə görə, bu versiyanın doğruluğunu siçanlar üzərində keçirilən təcrübə sübut edib. Çipsin tərkibindəki maddələr, habelə yeyilərkən çıxan səs insan beynindəki zövq mərkəzlərinə müsbət təsir edir. Alim onu da deyib ki, bu təcrübənin nəticələri dietoloqlar üçün maraqlı mənbə ola bilər. Bundan başqa, çipsin tərkibində soğan, pendirin qoxuları da iştahı artırır.

# Bu səhər yeməyinə 59 çeşid daxildir

İngiltərədəki Portisxed şəhərindəki bir kafe sahibi öz ziyarətçilərinə səhər yeməyi üçün 59 növ yemək təklif edib. Həmin səhər yeməyinin energetik dəyəri 8 min kilokalori təşkil edir; qiyməti isə 23 dollardır. Onu kafedə keçirilən xüsusi aksiya çərçivəsində verirlər.

Bu səhər yeməyinin öhdəsindən gəlmək üçün ziyarətçilərə 1 saat vaxt lazım gəlir. Yeməyin öhdəsindən tam gələnlərin adı kafenin şərəf lövhəsinə düşə bilər. Bundan başqa, onlara daha bir səhər yeməyi üçün çek də veriləcək. Amma aksiyanın başlandığı bir ay boyunca hələ heç kimə bu səhər yeməyinin öhdəsindən tam gəlmək nəsib olmayıb. Səhər yeməyinə iki cür qayğanaq, 4 porsiya göbələklə qızardılmış kartof, tomat sousu, kolbasalar, 6 sosiska, 4 dilim çörək, kartof oladisi, bekon daxildir. Kafenin qaydasına görə, bu yemək ancaq yetkinlik yaşına çatan şəxslərə təklif oluna bilər. Bu kafedə təklif olunan səhər yeməyinin həcmi rekorda çatıb.





## 61 yaşında ana oldu

İtaliya mediasında yer alan xəbərə görə, Maria Veneruso adlı 61 yaşlı qadın heç bir müalicə almadan hamilə qalıb. Sağlam bir hamiləlik dönəmi keçirən Veneruso və onunla eyni yaşda olan həyat yoldaşı Napoli yaşadıqları Caserta qəsəbəsində yerləşən bir xəstəxanada bir gün öncə 3.5 kilo ağırlığında dünyaya gələn oğullarına Elia adını verib. Ana və körpənin səhhətinin yaxşı olduğu açıqlanıb. Daha öncə 4 dəfə hamilə qalan qadın hər dəfəsində körpəsini itirib və hamiləliyi pozulub. Yenicə ana olan qadın yerli mediaya bunları deyib: "Bir yuxumuz gerçək oldu. İndi valideyn olmağın dadını çıxaracağıq".




QOÇ - Üzərinizə düşən öhdəliklərə məsuliyyətlə yanaşsanız, bütün planlarınız reallığa yaxınlaşacaq. Buna baxmayaraq, yersiz risklərə də yol verməməlisiniz. Ziyarətgahlara gedin.

BUĞA - Bu gün bütün ixtiyar öz əlinizdə olduğundan ölçülü-biçili hərəkət etməlisiniz. Əgər müsbət müstəviyə həvəs göstərsəniz, günün sonuna qədər ovqatınız yüksək olacaq. Çılğın olmayın.

ƏKİZLƏR - Yaxşı olar ki, Tanrı qanunlarını pozmayasınız. Əks təqdirdə, bu günü gərgin şəkildə başa vuracaqsınız. Ulduzlar ikitərəfli əməkdaşlıqda böyük uğurlardan xəbər verir.

XƏRÇƏNG - Aldanma ehtimalınız böyüdüyündən tədbirli olmağınız vacibdir. Ola bilsin ki, ətrafınızdakılar pulla bağlı sizə kələk gəlsinlər. Axşamı ailə-sevgi münasibətlərinə həsr edin.

ŞİR - Şəxsi işlərinizdə müsbət dönüşün yaranacağına təminat verən ulduzlar vaxtınızı boş yerə itirməməyi tövsiyə edir. Nahardan sonrakı əsas diqqətinizi bütünlüklə sevgiyə həsr edin.

QIZ - Yeni təkliflər ala bilərsiniz. Lap səhər saatlarından bu şansa hazır olun ki, nəticədə qalib gələsiniz. Pula görə də narahat olmayın. Çünki sevincli vaxtınızın yetişməsinə az qalıb.

TƏRƏZİ - Məhsuldarlığınız artdığından bugünkü öhdəlikləri layiqincə yerinə yetirə bilərsiniz. Qərarlarınızda sərt, eyni zamanda qərəzsiz olun. Səfərə çıxmaq fikrinizi reallaşdırın.

ƏQRƏB - Əsas uğurunuz maliyyə sahəsində mümkündür. Odur ki, kisənizi hazır tutun. Həmkarlarınızla münasibətlərinizə xələl gəlməsin deyə, qalmaqallı situasiyalara həvəs göstərməyin.

OXATAN - Təxminən saat 13-ə qədər iştirakçısı olduğunuz situasiyalar ovqatınıza mənfi təsir göstərə bilər. Buna baxmayaraq, təmkin göstərməlisiniz ki, hər şey sakit ötüşsün. Varlanma ehtimalınız da var.

OĞLAQ - Aktiv gün olmadığından nəzərdə tutduğunuz planları təxirə salın. Gücünüzü daha çox ailə-məişət problemlərinin həllinə yönəldin. Şəxsi büdcənizin artma ehtimalı da böyükdür.

SUTÖKƏN - Daha çox fəaliyyət göstərdiyiniz idarə və müəssisələrdə ehtiyatlı olmalısınız. Boş yerə mübahisə yaratsanız, nüfuzunuza xələl gələcək. Axşama doğru kosmik fon xeyrinizə işləyəcək.

BALIQLAR - Ulduzlar bu gün xeyli yorulacağınızdan xəbər verir. Amma narahat olmamalı, gördüyünüz işlərdən zövq almalısınız. Nahardan sonra sizə maddi borcu olanlara müraciət edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uşaq sözəbaxandırsa... bəlkə xəstədir?



Amerika Sosial Həyat Dərnəyi ailədəki sözəbaxan, həddən artıq nümunəvi uşaqların da narahatçılıq doğuran məqamları olduğunu açıqlayıb. Dərnək psixoloqları aydınlaşdırıb ki, əslində uşağa xas olan dəcəllik, bəzən ziyankarlıq hansısa balacada yoxdursa, bu, həm də onun psixologiyasındakı bəzi para pozğunluqdan xəbər verir. Yəni həddən ziyadə sakit uşaq gələcəkdə təhlükəli bir cani, psixopat, serial qatil ola bilər. Alimlər təbii olmayan hər şeyin gələcəkdə fəsad törədə biləcəyini yazıb. Sakit, nümunəvi uşaq isə heç də təbii sayılmır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.